6 sentyabr 2024 №66 (2131)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan teatrı Neva sahilində alqışlanıb

### Akademik Milli Dram Teatrının tamaşası Sankt-Peterburq səhnəsində

Xəbər verdiyimiz kimi, 3-4 sentyabr tarixlərində Rusiyanın Sankt-Peterburq şəhərində – Aleksandrinski Teatrında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının "İblis və..." tamaşasının premyerası keçirilib. Bu, Azərbaycan teatr tarixində Aleksandrinski Teatrında premyerası olan ilk tamaşadır.



Sentyabrın 3-də tamaşanın nümayişindən əvvəl hər iki teatrın rəhbərliyinin iştirakı ilə mətbuat konfransı keçirilib.

Mətbuat konfransında Rusiya Milli Dram Teatrı – Aleksandrinski Teatrının prezidenti Rusiyanın Xalq artisti Valeri Fokin, teatrın direktoru Aleksandr Maliç, bədii rəhbəri Nikita Kobelev, Akademik Milli Dram Teatrının bədii rəhbəri Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Mehriban Ələkbərzadə, teatrın direktoru Əməkdar mədəniyyət işçisi İlham Əsgərov çıxış ediblər.

Çıxışlarda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yeni tamaşasının ilk nümayişinin Aleksandrinski Beynəlxalq Teatr Festivalı çərçivəsində keçirilməsi əlamətdar hadisə kimi qiymətləndirilib, iki teatrın gələcək əməkdaşlığı ilə bağlı fikirlər səslənib.

Aleksandrinski Teatrına xatirə hədiyyəsi təqdim olunub.

Daha sonra tamaşa nümayiş olunub.

Azərbaycanın mütəfəkkir şairi və dramaturqu Hüseyn Cavidin "İblis" faciəsinin motivləri əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Mehriban Ələkbərzadə, quruluşçu rəssamı İlham Əsgərov, geyim üzrə rəssamı Vüsal Rəhim, işıq üzrə rəssamı Rafael Həsənov, bəstəkarı Azər Hacıəsgərli, məsləhətçisi Əməkdar mədəniyyət işçisi Azər Turan, rejissor assistentləri Nərmin Həsənova və Ceyran Başarandır.

Rolları Ayşad Məmmədov və Anar Heybətov (İblis), Elnar Qarayev (İblisin varisi-1), Elşən Cəbrayılov (İblisin varisi-2), Ziya Ağa (Arif), Elsevər Rəhimov (Vasif), Vəfa Rzayeva (Rəna), Elçin Əfəndi (İbn Yəmin), Elşən





Rüstəmov (Elxan), Kazım Abdullayev (İxtiyar şeyx), Lalə Süleymanova (Xavər), Vüsal Mustafayev (Vasifin dostu), Elçin Nurəliyev (Çavuş, Haydut) və Tural İbrahimov (Kanuni, Haydut) oynayırlar.

Rusiyalı sənətsevərlərlə yanaşı, çoxlu sayda azərbaycanlı diaspor nümayəndəsinin də izlədiyi səhnə əsəri alqışlarla qarşılanıb.

Qeyd edək ki, "İblis və..." tamaşasının nümayiş olunduğu iki gün ərzində Aleksandrinski Teatrının foyesində Akademik Milli Dram Teatrı ilə bağlı fotosərgi də nümayiş olunub. Sərgidə teatrın tarixi, yerləşdiyi binanın özəlliyi, məşhur rejissorları, aktyorları, teatr hadisələrinə çevrilmiş tamaşaları əksini tapıb.

## İtaliya Azərbaycanın Avropada ən böyük tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə sentyabrın 4-də Romaya işgüzar səfərə gedib. Roma şəhərinin "Leonardo da Vinci Rome Fiumicino" hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliyanın rəsmi şəxsləri qarşılayıblar.

Sentyabrın 5-də Romanın "Quirinale" Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.



Azərbaycan nümayəndə heyəti İtaliya Prezidentinə, İtaliya nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim edilib.

Sercio Mattarella çıxışında Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu qeyd edərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğulayıb.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən Azərbaycan Prezidenti əlaqələrimizin çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu bildirib. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulanıb. Bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olunub.

Söhbət zamanı humanitar və mədəni əlaqələrin önəminə də toxunulub, ADA Universiteti ilə İtaliyanın beş universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti qeyd edilib. Burada təhsil alan tələbələrin gələcəkdə ölkələrimiz arasında dostluğun elçiləri olacaqlarına və münasibətlərimizin inkişafına töhfə verəcəklərinə əminlik bildirilib.

**davamı səh. 2-də**

## Füzulidə Uşaq Yaradıcılıq Mərkəzi qapılarını şagirdlərinə açır

### Hələlik 6 ixtisas üzrə 24 şagird təhsil alacaq

2024/2025-ci tədris ilindən etibarən Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzində incəsənətin müxtəlif sahələri üzrə davamlı tədris həyata keçiriləcək.

"Böyük Qayıdış" proqramı çərçivəsində Bakı və digər rayonlardan doğma yurdlarına köçən sakinlərin övladları üçün yeni tədris ilində fortepiano, qanun, qarmon, tar, violin və rəqs ixtisasları üzrə tədrisə başlanılacaq.

Proqram çərçivəsində ilk olaraq 24 şagird təhsilə cəlb ediləcək. Beş təcrübəli müəllim onlara sənətin sirlərini öyrədəcək. Növbəti mərhələlərdə digər sakinlərin Füzuliyə qayıdışı ilə, təbii olaraq, şagirdlərin sayı da artacaq.



Qeyd edək ki, Qazaxıstan Respublikası tərəfindən inşa olunan və bu ilin mart ayında istifadəyə verilən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi Füzuli şəhərində uşaq və yeniyetmələrin yaradıcılıq qabiliyyətlərini ortaya qoymalarına, incəsənət sahəsində biliklərə yiyələnmələrinə münbit şərait yaradacaq.

Ötən müddətdə Mədəniyyət Nazirliyinin bilavasitə təşkilatçılığı ilə yaradıcılıq mərkəzində şagirdlər üçün müxtəlif sənət növləri üzrə təlimlər keçirilib, eyni zamanda məktəblilər üçün yay düşərgəsi gerçəkləşdirilib.

## Ölkəmiz 37-ci Moskva Beynəlxalq Kitab Yarmarkasında təmsil olunur

Rusiyanın paytaxtında ənənəvi kitab bayramı – 37-ci Moskva Beynəlxalq Kitab Yarmarkası sentyabrın 4-də işə başlayıb. Bu il yarmarkaya müxtəlif ölkələrdən 300-ə yaxın nəşriyyat və kitab sənayesi ilə bağlı digər qurumlar qatılıb. Fəxri qonaq ölkə Belarus Respublikasıdır.




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycanın Rusiya Federasiyasındakı Səfirliyinin dəstəyi ilə ölkəmiz də Moskva Beynəlxalq Kitab Yarmarkasında təmsil olunur.

Sərgidə Mədəniyyət Nazirliyinin nümayəndələri və uşaq yazıçısı Solmaz Amanova iştirak edirlər.

Nazirliyin nümayəndə heyəti açılış günündə bir sıra tədbirlərə qatılıb. Milli stenddə Azərbaycanın tarixi, mədəniyyəti və kitab sənəti barədə sərginin iştirakçılarına geniş məlumat verilir.

37-ci Moskva Beynəlxalq Kitab Yarmarkası çərçivəsində ənənəvi olaraq MDB-nin "Kitab sənəti" müsabiqəsinin mükafatları da təqdim olunacaq. Qalib nəşrlər arasında yazıçı Solmaz Amanovanın müəllifi olduğu kitab da var.

Xatırladaq ki, müsabiqəyə Azərbaycandan 9 adda kitab təqdim olunub. Ölkəmizin nəşrləri 4 nominasiya üzrə I, 2 nominasiya üzrə II, 3 nominasiya üzrə III yerlərə layiq görülüb.

300-dən çox tədbirin keçirilməsinin nəzərdə tutulduğu 37-ci Moskva Beynəlxalq Kitab Yarmarkası sentyabrın 8-də başa çatacaq.

## Bölgə teatrlarının yeni mövsüm mənzərəsi

Şəki Dövlət Dram Teatrında yeni mövsüm sentyabrın 14-də Xalq yazıçısı İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən..." ("Boy çiçəyi") tamaşası ilə açılacaq.



İkihissəli lirik-psixoloji tənhalıq dramının quruluşçu rejissoru Elvin Nuri, quruluşçu rəssamı Sahib Əhmədov, geyim üzrə rəssamı Günay Hidayətova, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Rolları Əməkdar artist Rəhim Qocayev, aktyorlar Aytac İsmayılzadə, Lalə Məmməd, Xəyal Salahov və Nərmin Abbasova ifa edirlər.

Teatrda görkəmli dramaturq Altay Məmmədovun "Ulduzlar görüşəndə" əsəri əsasında tamaşanın məşqlərinə başlanılıb. Quruluşçu rejissor Hüseyn Hüseynli, quruluşçu rəssam Sahib Əhmədov, baletmeyster Elvin Nuri, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Səhnə əsərində Əməkdar artistlər Xanlar Həşimzadə, Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Elvin Mabudov, Rəsul Məmmədrəhimov, Fərahim Fətəliyev, Nərmin Abbasova, İlkin Rüstəmov, Pərviz İsmayılov, Rəşad Rüstəmov, Rəşid Mirizadə, Qurban Rəsulov, Azad Məmmədov və digərləri rol alıblar.

Tamaşanın premyerası noyabr ayına nəzərdə tutulur.

**davamı səh. 4-də**

## "Quruluşçu rəssam işi nankor sənətdir"

### "Nə qədər əziyyət çəkirsən, sanki heç kim bunu görmür"



Televiziya tamaşaları rejissor, dramaturq, operator və onlarla texniki işçinin əməyinin bəhrəsi olaraq ekranlara çıxır. Bu sırada rəssamın da əməyini unutmaq olmaz. Uzun illər bu sahədə çalışaraq sənətə töhfəsini verən insanlardan biri də Əməkdar incəsənət xadimi, televiziya və kino rəssamı Rafael Əsədovdur.

**səh. 5**



### Bəstəkarların yeni əsərləri musiqi və incəsənət məktəblərində tədris olunacaq

**səh. 3**




### Çağdaş Qərbi Azərbaycan aşıqlarının ifası audiodiskdə

**səh. 3**

№66 (2131)
6 sentyabr 2024
www.medeniyyet.az

# İtaliya Azərbaycanın Avropada ən böyük tərəfdaşıdır



əvvəli səh. 1-də

İtaliya-Azərbaycan Universitetinin yaradılmasının əhəmiyyətinə diqqət çəkən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında mühüm rol oynadığını deyib.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu və ölkəsinin də COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirib. Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən İlham Əliyev qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda, ölkəmizə olan etimadın göstəricisidir.

Prezident vurğulayıb ki, Azərbaycan 2019–2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Azərbaycan COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcək.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd edib.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu, Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin qurulduğunu deyib. Bununla belə, İlham Əliyev təəssüflə qeyd edib ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Prezident sülh gündəliyinə toxunaraq, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda, Cənubi Qafqazda regional əməkdaşlıq təşəbbüslərinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu deyib.

Dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirib. Bununla yanaşı, Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğu diqqətə çatdırılıb, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmi vurğulanıb. Qeyd olunub ki, bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacaq.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulanıb.

Sonda İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət edib. Sercio Mattarella dəvəti məmnunluqla qəbul edib.

***

Həmin gün Romada Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.

"Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. İtaliyanın nümayəndə heyətinin üzvləri Azərbaycan dövlət başçısına, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliyanın hökumət başçısına təqdim olunub. Birgə foto çəkdirilib.

***

Sentyabrın 5-də Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə mübadiləsi mərasimi olub.

***

Prezident İlham Əliyev İtaliyaya işgüzar səfəri çərçivəsində sentyabrın 5-də Romada "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb.

Görüşdə SOCAR ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunulub, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, sənədlərin imzalanmasından sonra "Eni S.P.A" şirkəti daha qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi üçün işçi plan və strategiya hazırlayacaq.

***

Azərbaycan Prezidentinin İtaliyaya işgüzar səfəri çərçivəsində İtaliyanın Müəssisələr və "Made in Italy" Nazirliyi, Azərbaycanın İqtisadiyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və İtaliya Sənaye Konfederasiyasının ("Confindustria") birgə təşkilatçılığı ilə İtaliya–Azərbaycan dəyirmi masası keçirilib.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, tədbirdə hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, enerji sektoru, kimya sənayesi, avtomobil istehsalı, mühəndislik, əczaçılıq, kənd təsərrüfatı, metallurgiya, tikinti, qida və digər sahələrdə fəaliyyət göstərən 40-a yaxın sahibkar iştirak edib.

***

Qeyd etmək lazımdır ki, Azərbaycan-İtaliya münasibətləri dostluq və əməkdaşlıq ənənələri üzərində təşəkkül tapıb. İki ölkə rəhbərlərinin qarşılıqlı səfərləri münasibətlərin inkişafına böyük təkan verir.

Azərbaycan-İtaliya siyasi dialoqunun möhkəm təməli 1997-ci ildə Prezident Heydər Əliyevin bu ölkəyə rəsmi səfəri ilə qoyulub. Bundan sonra qarşılıqlı münasibətlər inkişaf etməyə başlayıb, o cümlədən bir sıra səfərlər həyata keçirilib.

Bu mənada, Azərbaycan ilə İtaliya arasında yüksək səviyyəli qarşılıqlı səfərlər münasibətlərin dinamikasını nümayiş etdirir. İtaliya Prezidenti Sercio Mattarellanın 2018-ci ilin iyulunda Azərbaycana ilk dövlət səfəri də əlaqələrin inkişafında xüsusi yer tutur. 2020-ci ilin fevralında isə Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyaya dövlət səfəri reallaşıb. Dövlətimizin başçısının 2022-ci ildə İtaliyaya növbəti səfəri iki ölkə arasında əlaqələrin dinamik inkişafına töhfə olub.

Enerji sahəsində əməkdaşlıq xüsusilə yüksək səviyyədədir. İtaliya Azərbaycandan xam neft və neft məhsullarının ixracında ən iri ticarət tərəfdaşıdır.



Ötən il TAP kəməri vasitəsilə İtaliyaya təqribən 10 milyard kubmetr qaz ixrac olunub. İki ölkə arasında ticarət dövriyyəsinin əsasını Azərbaycanın ixracatı təşkil edir. 2023-cü ildə Azərbaycanın İtaliya ilə ticarət dövriyyəsinin həcmi 15,7 milyard dollar, o cümlədən ixracın həcmi 15,2 milyard dollar təşkil edib. İtaliyanın da Cənubi Qafqaz ölkələri arasında əsas ticarət tərəfdaşı Azərbaycandır. Bu ölkənin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 85 faizini Azərbaycanla ticarət təşkil edir. 2023-cü ildə İtaliyanın Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 30,65 faiz (1-ci yer), o cümlədən ixracda 44,86 faiz (1-ci yer) təşkil edib.

***

İki ölkə arasında humanitar sahələrdə, özəlliklə mədəniyyət sahəsində münasibətlər də uğurla inkişaf edir. 2012-ci ildə Romanın "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin açılışı olub. Abidə Nizami Gəncəvinin 870 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə ucaldılıb.

Mədəni əlaqələrdən danışarkən, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının bərpa edilməsini xüsusi qeyd etmək lazımdır. Vatikanda Heydər Əliyev Fondunun və şəxsən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillər üçün saxlanılması istiqamətindəki səyləri çox yüksək qiymətləndirilir.

2020-ci ildə İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan edilməsi də ölkələrimiz arasında mədəni əlaqələrin yüksək səviyyəsinin daha bir göstəricisidir.

Azərbaycan Dillər Universitetində italyan dili tərcüməsi ixtisası və İtalyan Dili Mərkəzi fəaliyyət göstərir. Prezident İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı Bakıda İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılıq əldə edilib. 2022-ci ildə Bakıda ADA Universitetinin kampusunda ali təhsil müəssisəsinin təməli qoyulub və 2024-cü ildə ilk qəbul keçirilib. İtaliya da Avropada azərbaycanlı tələbələrin ali təhsil aldığı əsas ölkələrdən biridir.

Beləliklə, zəngin tarixə malik Azərbaycan–İtaliya mədəni əlaqələri ən müxtəlif sahələrdə inkişaf edir, ildən-ilə strateji tərəfdaşlıqda yeni səhifələr açılır.

# Polad Bülbüloğlu Ermitaj Mükafatının laureatı olub

Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu Sankt-Peterburq Beynəlxalq Birləşmiş Mədəniyyətlər Forumunun təşkilat komitəsi və Dövlət Ermitaj Muzeyi tərəfindən təsis edilən Ermitaj Mükafatının laureatı olub.

Bu barədə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Tatyana Qolikova jurnalistlərə açıqlamasında deyib.

O diqqətə çatdırıb ki, Ermitaj Mükafatı bu il ikinci dəfə veriləcək: "Xarici mədəniyyət xadimi kimi sizlərin də yaxşı tanıdığı, Sovet İttifaqının qızıl səsi, Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu, Rusiya tərəfdən isə tanınmış ad Boris Yakovleviç Eyfman ikinci Ermitaj Mükafatının laureatlarıdır. Bu, adıçəkilən insanların həm Rusiya, həm də dünya mədəniyyətinin inkişafına verdiyi töhfələri vurğulamağa imkan verən çox əlamətdar mükafatdır".

Mükafatlandırma mərasimi sentyabrın 14-də Sankt-Peterburqda, Dövlət Ermitaj Muzeyində keçiriləcək.

Ermitaj Mükafatı Sankt-Peterburq Beynəlxalq Mədəniyyət Forumunun təşkilat komitəsi və Dövlət Ermitaj Muzeyi tərəfindən 2023-cü ildə təsis edilib. Mükafat Rusiyadan və xaricdən iki aparıcı mədəniyyət xadiminə mədəniyyət və incəsənət, mədəni irsin qorunması və beynəlxalq mədəni dialoqun gücləndirilməsi sahəsində nailiyyətlərinə görə verilir.

# Daha 30 ailə Şuşaya köçüb

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, "Böyük Qayıdış" proqramı çərçivəsində Şuşa şəhəri də doğma sakinlərini qarşılamağa davam edir. Sentyabrın 5-də daha 30 ailə (102 nəfər) doğma yurduna qovuşub. Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxanada, sanatoriyada, pioner düşərgəsində, yarımçıq tikililərdə və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.



Ailələrə şəhərdə yeni tikilən yaşayış kompleksindəki mənzillərinin açarları təqdim edilib.

Doğma yurda qayıdan şuşalılar hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edirlər.

Onlar torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən Vətən fədailərinə rəhmət, qazilərimizə şəfa diləyiblər.

Xatırladaq ki, Şuşaya keçmiş məcburi köçkünlərin ilk qayıdışı bu ilin 10 may tarixində gerçəkləşib. İndiyədək şəhərdə 177 ailənin (672 nəfər) daimi məskunlaşması təmin edilib.

# ICESCO-nun "Poeziya şəhərləri" müsabiqəsi – Şuşadan üç qalib seçiləcək

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) 2024-cü ildə üç şəhəri – Azərbaycanın Şuşa, Mərakeş Krallığının Marrakeş və Liviyanın Benqazi şəhərlərini "İslam dünyasının mədəniyyət paytaxtları" elan edib.




"İslam dünyasının mədəniyyət paytaxtları" proqramının bir hissəsi olaraq ICESCO bu ildən "Poeziya şəhərləri" mükafatı üçün müsabiqəyə də başlayır.

Təşkilatın mətbuat üçün məlumatında bildirilir ki, hər il keçiriləcək müsabiqə şairləri ölməz poeziya toplusu yaratmağa ruhlandırmaq, klassik şeir ənənələri ilə müasir poeziya arasında əlaqəni canlandırmaq və gücləndirmək məqsədi daşıyır. Bu müsabiqə, həmçinin şəhərlərin tarixini və coğrafiyasını poetik və estetik cəhətdən sənədləşdirmək, şeir vasitəsilə İslam dünyasının mədəniyyət paytaxtlarını təmsil edən simvolları və sivilizasiyaları daha geniş məkanda tanıtdırmaq, İslam dünyasındakı poetik korpusu zənginləşdirmək və ədəbiyyata töhfə vermək üçün təşkil olunur.

Müsabiqə üzrə İslam dünyasında "mədəniyyət paytaxtı" olan hər bir şəhərdən üç qalib seçiləcək. Təqdim olunan şeirlər ICESCO-nun ixtisaslaşmış komitəsi və tanınmış şairlər tərəfindən qiymətləndiriləcək.

Birinci yerin qalibi 2000, ikinci yerin qalibi 1500, üçüncü yerin qalibi, təşəkkür sertifikatları ilə yanaşı, 1000 dollar alacaq. Bundan başqa, ICESCO müsabiqədə iştirak edən qaliblərin şeirlər toplusunu nəşr etdirəcək.

Mükafat üçün namizədlərin şeirləri klassik ərəb və ya Azərbaycan dilində olmalıdır. Ərəbcə şeir sərbəst və ya qafiyəli poetik ölçüyə, Azərbaycan dilində yazılmış şeir isə tələffüz və ya prosodik ölçüyə uyğun olmalıdır. Şair şeirin mövzusunu təşkil edən dəyərlərdən, estetikadan, tarixdən, coğrafiyadan, şəhərin tarixindən ilham almalıdır.

ICESCO bütün yaş qruplarından olan şairləri 2024-cü il dekabrın 31-dən gec olmayaraq https://icesco.org/9k90 linki vasitəsilə öz təkliflərini göndərməklə müsabiqəyə qatılmağa dəvət edib.

# Rəqəmsal şəxsiyyət vəsiqələrinə keçid

## 2026-cı ilin sonunadək 1 milyon vətəndaş istifadə edəcək

Azərbaycan Respublikasında şəxsiyyəti təsdiq edən sənədlərlə bağlı islahatlar ötən əsrin 90-cı illərinin sonlarında başlayıb. 2001-ci ilin sentyabrından sovetdən qalan pasportlar tarixə qovuşub, Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin verilməsi həyata keçirilib.




Zaman keçdikcə şəxsiyyət vəsiqələrinin də yeni dövrün çağırışlarına uyğunlaşması zəruridir.

2014-cü ildə dövlət başçısının sərəncamı ilə aidiyyəti qurumlara yeni nəsil şəxsiyyət vəsiqələrinin hazırlanması üçün müvafiq tədbirlər görülməsi və bu işin 2018-ci il sentyabrın 1-dək başa çatdırılmasını təmin etmək tapşırıldı.

Həmin tarixdən etibarən Azərbaycan vətəndaşlarına yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsinə başlanıldı. Yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha üstündür. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı (çip) yerləşdirilib. Yeni nəsil vəsiqələr digər ölkələrin müvafiq orqanları ilə biometrik informasiya mübadiləsinin tənzimlənməsində müstəsna əhəmiyyət kəsb edir.

İndi isə sırada rəqəmsal şəxsiyyət vəsiqələrinə keçid var. Artıq bununla da bağlı müvafiq dövlət qurumlarına tapşırıqlar verilib.

2026-cı ilin sonunadək Azərbaycanda 1 milyon vətəndaşın rəqəmsal (digital) şəxsiyyət vəsiqəsindən istifadə edəcəyi planlaşdırılır.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bunu sentyabrın 4-də "Kağızsız Hökumət: Rəqəmsallaşma və innovasiyanın ətraf mühitə təsiri" adlı tədbirdə çıxış edərkən deyib.

Nazir müavininin sözlərinə görə, əhalinin 65 faizinin rəqəmsal vərdişlərinə yiyələnməsi əsas hədəflərdəndir. O cümlədən 2024-cü ilin sonunadək ölkədə bütün ev təsərrüfatlarını yüksəksürətli internetlə təmin etmək nəzərdə tutulub.

Milli Elektron Hökumət Platformasında hazırda 500-dək dövlət xidməti rəqəmsallaşdırılıb.

Bunu isə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) sədrinin müavini Rəşad Xalıqov deyib. Bildirib ki, "Hökumət buludu" (G-cloud) Milli Data Mərkəzi, elektron imza sistemləri var, bundan başqa, biometrik imza sistemi təşkil edilib. Vətəndaşlarımız elektron imza sistemi ilə müxtəlif dövlət qurumlarından məlumat əldə edə bilirlər.

# “Baku Cinema Breeze” – dörd festival bir arada

## Film festivallarının vahid şəbəkəsi olacaq

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Kino Agentliyinin dəstəyi ilə 2–8 oktyabr tarixlərində “Baku Cinema Breeze” adlı böyük kinofestival keçiriləcək.

“Baku Cinema Breeze” indiyədək ayrı-ayrılıqda təşkil edilən “Doku Baku” sənədli film festivalı, BİFF – Bakı Beynəlxalq Film Festivalı (qısa və tammetrajlı filmlər), ATA – Türk Animasiya Assosiasiyasının keçirdiyi film festivalı və ANIMAFILM Beynəlxalq Animasiya Festivalı kimi dörd layihəni bir araya gətirməklə dünya kinematoqrafiyası nümunələrinin nümayişi üçün vahid şəbəkə rolunu oynayacaq.

Festival çərçivəsində kino sənayesindəki imkanlarını nümayiş etdirən Orta Şərq və Mərkəzi Asiya miqyaslı yeni kino sənayesi bazarı “OMA” kinomarketi də təşkil olunacaq.

Tədbirdə iştirakçılar bir-birləri ilə əlaqələr qurmaq və gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək imkanı əldə edəcəklər ki, bu da regionda kino sənayesinin inkişafı üçün mühüm addım olacaq.




“Baku Cinema Breeze” festivalı əlavə olaraq ABŞ, Kanada, Hindistan, Niderland, Türkiyə, Almaniya, Portuqaliya, BƏƏ, Yunanıstan, Koreya, Gürcüstan, Estoniya və digər ölkələrdən kino sənayesi nümayəndələrini, həmçinin dünya kinematoqrafiyasının tanınmış simalarını Azərbaycanda bir məkana toplamaq niyyətindədir.

Festival müddətində Bakının müxtəlif kinoteatrlarında və məkanlarında paytaxt sakinləri, şəhərin qonaqları və ümumilikdə bütün kinosevərlər üçün film nümayişləri təşkil olunacaq.

Audiovizual sənayenin inkişafına istiqamətlənən bu tədbir Mədəniyyət Nazirliyinin “Yaradıcı Azərbaycan” layihəsi çərçivəsində həyata keçiriləcək.

“Baku Cinema Breeze” layihəsi bu payız Bakının mədəni həyatında əsas hadisə olmağı və təkcə kino mütəxəssislərinin diqqətini deyil, həm də sənətsevərlərin marağını cəlb etməyi hədəfləyir.

Festival barədə daha ətraflı məlumatı www.bakucinemabreeze.az saytında əldə etmək mümkündür.

# Dövlət Xidməti ilə Türk Mədəniyyəti və İrsi Fondu əməkdaşlıq edəcək

## Fond ilk olaraq Füzulinin Qoçəhmədli kəndindəki məscidin bərpasına dəstək verəcək

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında “Azərbaycan Respublikası ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb.

Sənədi Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva və Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova imzalayıblar.

Anlaşma memorandumunun imzalanması ölkəmizin ərazisində yerləşən və dövlət mühafizəsinə götürülmüş tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, bərpa və konservasiyası, müvafiq istiqamətdə təlimlərin təşkili, eləcə də mədəni irs sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məqsədini daşıyır.



Sənəd əsasında ilk olaraq Füzuli rayonunun işğaldan azad olunmuş Qoçəhmədli kəndində yerləşən məscidin bərpasına dəstək göstərilməsi planlaşdırılır.

İmzalanma mərasimində qardaş türk respublikaları ilə bütün sahələrdə münasibətlərin inkişafı, xüsusi ilə də mədəni əlaqələrin möhkəmlənməsinin sevindirici hal olduğu vurğulanıb. Qeyd olunub ki, Türk Mədəniyyəti və İrsi Fondu da bu istiqamətdə fəal rol alaraq, türk xalqlarının mədəniyyətinin və mədəni irsinin qorunması, təbliği və tanıdılması sahəsinə töhfələr verməkdədir. Azərbaycanın da bu sahəyə xüsusi dəstək göstərdiyi vurğulanaraq, qarşıdakı illərdə əməkdaşlığın daha da dərinləşəcəyinə inam ifadə olunub.

Tədbirdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı audiodiskdə

## Aşıqlar Birliyinin daha bir layihəsi yekunlaşıb





Azərbaycan Aşıqlar Birliyinin (AAB) Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə köməyi ilə həyata keçirdiyi “Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı” adlı layihə çərçivəsində audiodisk hazırlanıb.

Sentyabrın 5-də Aşıqlar Birliyində albomun təqdimatı oldu.

Qonaqları salamlayan AAB-nin sədri Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı layihənin əhəmiyyətindən söz açdı, Qərbi Azərbaycan aşıq mühitlərinin öyrənilməsinə və təbliğinə bundan sonra da diqqət yetiriləcəyini vurğuladı.

Bildirildi ki, aşıq sənətinin tədqiqatçıları və gənc aşıqlar üçün dəyərli vəsait olan albomda 24 aşıq havası yer alıb. Bu ifaları əslən Qərbi Azərbaycandan olan Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musaoğlu, Xanlar Xəlilov, İmran Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı, Rəfiqə Göyçəli, Nərmin Salahova, Familə Göyçəli, Elməddin Bayramlı, İmralı Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadlı aşıqlar səsləndiriblər.

AAB-nin katibi, layihənin rəhbəri Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu albom hazırlanarkən əslən Qərbi Azərbaycandan olub, ötən əsrin sonlarında öz dədə-baba yurdlarından didərgin salındıqdan sonra respublikamızın müxtəlif guşələrində məskunlaşmış aşıqlarımızın musiqi repertuarına diqqət yetirildiyini diqqətə çatdırdı.

Bildirdi ki, layihə həyata keçirilərkən Qərbi Azərbaycanda yaradılmış və bu bölgənin aşıq mühitləri ilə bağlı olan havalarına, mətn seçimində isə Vətən və vətənpərvərlik, Qərbi Azərbaycandakı yurd yerlərimizlə bağlı bədii nümunələrə üstünlük verilib. Həmçinin Qərbi Azərbaycanın Göyçə, İrəvan, Zəngəzur, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi aşıq mühitləri əhatə olunub.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli, göyçəli ziyalılar Şakir Səmədoğlu və Yusif Ağbulaqlı çıxışlarında albomun ərsəyə gəlməsində əməyi keçənlərə təşəkkür etdilər.

Sonra söz musiqiyə verildi. Aşıqlar İmran Xəlilov, Qurban Əliyar, Xanlar Xəlilov, Faxfur Ağbabalı, Səhənd Əliyar, Ləman Mirzəyeva, eləcə də “Çeşmə” folklor qrupu və Sumqayıt şəhər Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbinin şagirdləri Nuran Məhərrəmov, Röyal Məmmədov aşıq havalarını ifa etdilər.

Qeyd edək ki, hazırlanmış albom aşıq sənətinin tədris olunduğu təhsil ocaqlarına pulsuz veriləcək. Albomdan həmçinin aşıq sənətinin tədqiqatçıları və musiqişünaslar da bəhrələnə biləcəklər.

**Nurəddin**

# Antalyadakı Akdeniz Universitetində Azərbaycanşünaslıq Mərkəzi yaradılacaq

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov Antalyada keçirilən “Azərbaycan mədəniyyəti və sənəti günü” tədbirləri çərçivəsində Akdeniz Universitetinin rektoru professor Özlenen Özkanla görüşüb.

Görüşdə Akdeniz Universitetində Azərbaycanşünaslıq Mərkəzinin yaradılması ilə bağlı müzakirə aparılıb, mərkəzin çoxfunksiyalı fəaliyyəti, o cümlədən burada ölkəmizə dair mini kitabxananın təşkili və s. məsələlər razılaşdırılıb.

AMM sözügedən mərkəzi texniki avadanlıqlarla təmin edəcək, birgə layihələr həyata keçirəcək. Burada Azərbaycan dili kursları da təşkil olunacaq.

Qeyd edək ki, 24 fakültə üzrə 74 min tələbəsi olan Akdeniz Universitetində 600-dən çox azərbaycanlı təhsil alır. Azərbaycanşünaslıq Mərkəzi gələcəkdə universitetdəki azərbaycanlı tələbələrin dərnəklərinin fəaliyyətinə də dəstək olacaq.



***

AMM-in direktoru Samir Abbasov Antalyada “Azərbaycan mədəniyyəti və sənəti günü” tədbirləri çərçivəsində Antalya Kitabxanasında da olub.

Türkiyə Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə inşa edilən və 2023-cü ildə açılışı olan Antalya Kitabxanası bu sahə üzrə regionunun ən böyük məkanına sahibdir. 1 milyon kitab fonduna və 2500 nəfərə xidmət göstərmək imkanlarına malik, müasir kitabxana-informasiya konseptinə uyğun qurulan kitabxana Akdeniz Universitetinin yaxınlığında yerləşir. Antalya şəhərində Kəpəz Bələdiyyəsi sisteminə aid edilən kitabxana 365 günü 24 saat fasiləsiz fəaliyyət göstərir.

Kitabxananın direktoru Oğuzhan Ceylanla görüşdə Azərbaycan kitabxanaları ilə əlaqələrin qurulması, qarşılıqlı səfərlərin təşkili, birgə layihələrin həyata keçirilməsi, Antalya kitabxanasında “Azərbaycan fondu”nun, “Türk dünyası guşəsi”nin yaradılması barədə söhbət açılıb.

Həmçinin kitabxanada “Azərbaycan günü”nün keçirilməsi, Azərbaycan yazarları ilə görüşlərin və onların əsərlərinin təqdimatlarının təşkili kimi məsələlər müzakirə olunub.

Sonda kitabxanaya Azərbaycan dövlətçiliyi, tarixi, mədəniyyəti və ədəbiyyatına dair Azərbaycan və türk dillərində nəşrlər hədiyyə edilib.

# Bəstəkarların yeni əsərləri musiqi və incəsənət məktəblərində tədris olunacaq

2024/2025-ci dərs ilindən başlayaraq yerli bəstəkarların son dövrlərdə yazdığı əsərlər Mədəniyyət Nazirliyinin tabeliyində olan musiqi və incəsənət məktəblərinin tədris proqramına daxil ediləcək.

Mədəniyyət Nazirliyində Azərbaycan Bəstəkarlar İttifaqının nümayəndələri ilə birgə keçirilmiş görüşdə bununla bağlı müzakirə aparılıb.

Bu prosesin vaxtaşırı davam etdirilməsi, yeni bəstələrin müvafiq təhlillər aparıldıqdan sonra proqramlara əlavə edilməsi ilə əlaqədar razılığa gəlinib.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən hazırlanacaq not nümunələri sistemli şəkildə həm elektron daşıyıcılarda, həm də çap (kağız) formatında məktəblərə təqdim olunacaq.

Proqrama salınacaq nümunələr arasında Firəngiz Əlizadənin “Zəfər marşı”, Elnarə Dadaşovanın fortepiano üçün pyesləri, Adilə Yusifovanın fortepiano üçün pyesləri və “Yaz nağılı” kantatası, həmçinin Sərdar Fərəcov, Faiq Nağıyev, Mehriban Əhmədova, Zabitə Məmmədova, Cahangir Zülfüqarov, Pikə Axundova, İlahə Qismət və digər bəstəkarların uşaqlar üçün əsərləri var.

Bu təşəbbüsün əsas məqsədi yeni nəsil musiqiçilərin milli və müasir musiqi üslublarını mənimsəməsini təmin etmək, eyni zamanda müasir dövr bəstəkarların yaradıcılığının təbliğinə dəstək olmaqdır.

Yenilənmiş tədris proqramı sayəsində musiqi və incəsənət məktəblərinin şagirdləri rəngarəng repertuarla tanış olaraq bu sahədə bilik və bacarıqlarını daha da inkişaf etdirəcəklər.

# Tbilisidəki Azərbaycan Dram Teatrı İtaliyada festivala qatılıb

Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrı 30 avqust – 2 sentyabr tarixlərində İtalyanın Oliveto Citra şəhərində (Salerno əyaləti) keçirilən teatr festivalında iştirak edib.



Yaradıcı heyət sənət bayramına Pərvin Nurəliyevanın “Mən öləndə ağlama” əsəri əsasında hazırlanmış eyniadlı tamaşa ilə qatılıb. Tamaşanın quruluşçu rejissoru teatrın bədii rəhbəri Turqay Vəlizadə, rəssamı Nino Kitiadır. Rolları Nərmin Həsənova, Telman İsfahanlı, Mədinə Həsənova, Fuad İsfahanlı və Turqay Vəlizadə ifa ediblər.

Ötən ilin sonlarında teatr ictimaiyyətinə təqdim olunan tamaşa İtaliyadakı festivalda da maraqla qarşılanıb.

Festivala Litva, Cənubi Koreya və İsveçrədən də teatrlar qatılıb.

# AMEA-da Xətaiyə həsr olunmuş beynəlxalq konfransın iştirakçıları ilə görüş

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu və Türkiyənin Hacettepe Universitetinin təşkilatçılığı ilə keçirilən “I Beynəlxalq Şah İsmayıl Xətai konfransı”nın iştirakçıları ilə görüşüb.



İsa Həbibbəyli konfransın Şah İsmayıl Xətainin zəngin həyat və fəaliyyətinin araşdırılmasına və yeni faktların üzə çıxmasına töhfə verəcəyini bildirib. Şah İsmayıl Xətainin sovet ideologiyasının təsiri altında ölkəmizdə daha çox şair kimi öyrənildiyini deyən akademik müstəqillik dövründə onun hökmdar, sərkərdə olaraq fəaliyyətinin ətraflı araşdırıldığını vurğulayıb.

Qərbin məkrli planları əsasında Səfəvilərlə Osmanlı imperiyası arasında baş vermiş Çaldıran döyüşünün (1514) səbəbləri üzərində də araşdırmalar aparıldığını bildirən akademik Xətainin bir neçə il öncə aşkara çıxarılmış və Sultan Səlimə yazılmış 31 məktubunun tarixi həqiqətləri ortaya qoyduğunu deyib.

Beynəlxalq konfransın əhəmiyyətindən bəhs edən akademik onun iki ildən bir keçirilməsini təklif edib.

Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov konfransla bağlı məlumat verib, tədbirə Türkiyə, Qazaxıstan, Özbəkistan, Avstriya, Böyük Britaniya və İrandan 50-dən artıq tədqiqatçının qatıldığını deyib.

Türkiyənin Hacı Bayram Vəli Universitetinin professoru Əhməd Taşğın beynəlxalq konfransın təşkilinə verdiyi dəstəyə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib.

# Orden və medallar təsis edən QHT-lərlə bağlı bəyanat

Son zamanlar bir sıra qeyri-hökumət təşkilatlarının (QHT) orden və medallar təsis etməsi və müxtəlif şəxsləri, xüsusilə, şəhid ailələrinin üzvlərini, o cümlədən vəzifəli şəxsləri, dövlət məmurlarını bu orden və medallarla təltif etməsi müşahidə edilir.

Bu barədə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin bəyanatında bildirilir.

Bəyanatda diqqətə çatdırılır ki, “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunun müvafiq maddəsinə əsasən, orden və medal – vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifidir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və medallar (o cümlədən “orden” və ya “medal” ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

“İctimaiyyəti diqqətli olmağa çağırır, bu cür əməllərlə məşğul olan QHT-ləri qanunla qadağan olunan fəaliyyətdən çəkinməyə, məsələnin hüquqi məsuliyyətini dərk etməyə dəvət edirik”, – deyə bəyanatda vurğulanır.

# "London bahalı, ancaq incəsənət baxımından vacib şəhərdir"

## "Konsertlərdə, festivallarda məni "Azərbaycandan Elçin Şirinov" deyə çağıranda qürur duyuram"

Əməkdar artist, bəstəkar və caz pianoçu Elçin Şirinov altı ildən çoxdur Londonda yaşayır və Azərbaycan incəsənətini Britaniyanın müxtəlif şəhərlərində və Avropada təmsil edir.

Tanınmış cazmen AZƏRTAC-ın Londondakı müxbiri ilə söhbətində Böyük Britaniyadakı həyatı və fəaliyyəti barədə danışıb.

*– Necə oldu ki, Londona gəldiniz?*

– 2017-ci ildə Londona talant vizası ilə gəlmişəm. Bu vizanı əldə etmək olduqca çətin idi. Mən müraciət edəndə təxminən 500 nəfərlik kvota var idi və bu kvota yalnız musiqi üçün deyil, bütün incəsənət sahələrini əhatə edirdi. Ümidim az olsa da, müraciətim qəbul edildi. Bütün proses bir il çəkdi.

*– Ailədə sizdən başqa musiqi ilə məşğul olan varmı?*

– Böyük qardaşım Emin Şirinov klarnet ifaçısıdır, ortancıl qardaşım Ayaz Şirinov isə tar ifaçısıdır. Onların ikinci musiqi alətləri piano idi. Atam onlara piano aldı, onda mənim 3-4 yaşım olardı. Valideynlərim məni piano bölümünə qoymaq istəmədilər. Dedilər ki, artıq ailədə iki musiqiçi var və mən başqa sənət seçim. Ancaq mən öz seçimimi etmişdim. Pianodan başqa heç nə seçə bilməzdim.

*– Azərbaycan mədəniyyətini beynəlxalq səhnələrdə, xüsusilə də London kimi çoxmədəniyyətli bir şəhərdə təmsil etmək sizə hansı hisslər yaşadır?*

– Ümumiyyətlə, Azərbaycanı nəinki Londonda, həm də Avropada təmsil etmək qürurverici bir hissdir və böyük məsuliyyət tələb edir. Hər zaman konsertlərdə və ya festivallarda mənim adımı "Azərbaycandan Elçin Şirinov" deyə çağıranda çox qürur duyuram və çalışıram ki, ölkəmizi hər zaman layiqincə təmsil edim. Bəzən elə olur ki, kiminsə ölkəmiz haqqında heç bir məlumatı olmur, ancaq konsertdən sonra Azərbaycan haqqında araşdırıb nəsə öyrənirlər. Bu, sevindirici haldır.



Uşaq vaxtlarından mən Azərbaycan muğamı, xalq musiqisi və bəstəkarlarımızın mahnılarını öyrəndiyim üçün bu musiqi artıq qanıma hopub. Elə vaxt olur ki, biz Amerika caz standartlarını ifa edirik, bəzən isə təbii olaraq Azərbaycan melodiyaları və elementləri musiqidə öz əksini tapır. Konsertdən sonra dinləyicilər çox vaxt soruşur ki, bu nə melodiyalardır. Mən onlara Azərbaycan musiqisi haqqında danışıram və ya linklər göndərirəm.

*– Bir caz pianoçu kimi Londonda işləmək, yaşamaq çətindirmi?*

– 2018-ci ildə buraya köçdükdən sonra məşhur kontrabas ifaçısı Avişay Koenlə işləməyə başladım və dörd il onun triosunda çıxış etdim. Onunla dünyanın müxtəlif festivallarında iştirak etdik. Triodan ayrıldıqdan sonra Londondakı musiqiçilər mənimlə ifa etmək üçün can atırdılar, bu baxımdan heç bir problem yaşamadım.

Çətinliklər əsasən maliyyə ilə bağlıdır, çünki London bahalı şəhərdir. Havası daima yaxşı olmur. Ancaq incəsənət baxımından London ən vacib şəhərlərdən biridir. Burada musiqiçi üçün çoxlu inkişaf imkanları mövcuddur.

**Aytən Abbaslı**
**AZƏRTAC**

# Rəssam Aydın Rzaquliyev dünyasını dəyişib

Tanınmış rəssam, pedaqoq Aydın Rzaquliyev sentyabrın 3-də, 71 yaşında vəfat edib.



O, 7 iyun 1953-cü ildə Rusiyanın Krasnoyarsk vilayətində, 1930-cu illər repressiyası zamanı sürgün edilmiş görkəmli Azərbaycan boyakarı və qrafiki, Əməkdar rəssam Ələkbər Rzaquliyevin (1903–1974) ailəsində anadan olub. 1956-cı ildə Ə.Rzaquliyev bəraət aldıqdan sonra ailəsi vətənə qayıdıb.

Aydın Rzaquliyev 1973-cü ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1983-cü ildə isə M.Əliyev adına Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Şüşə və keramika fakültəsini bitirib.

Rəssam 1983-cü ildən mütəmadi olaraq respublika və beynəlxalq sərgilərin fəal iştirakçısı olub. Dekorativ-tətbiqi sənətin bədii-texniki imkanlarından istifadə etməklə keramika, vitraj, şəbəkə və s. sənət növlərində çoxsaylı əsərlər yaradıb. "İki nəfər", "Daşda həkk olunmuş Ay", Azərbaycanın nağıl qəhrəmanlarına həsr olunmuş keramik fiqurları və digər nümunələr maraqla qarşılanıb.

Aydın Rzaquliyev müxtəlif dövrlərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən İncəsənət Kollecində və akademiyanın Bədii keramika, şüşə və metal kafedrasında müəllim kimi fəaliyyət göstərib.

Allah rəhmət eləsin.

# Akademik Musiqili Teatr yeni mövsüm ərəfəsində festivala qatılacaq

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında 115-ci teatr mövsümünün başlanması ilə əlaqədar kollektivin geniş tərkibli toplantısı keçirilib.

Teatrdan bildirilib ki, sənət ocağının direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev yeni mövsüm münasibətilə kollektivi təbrik edib.

Teatr rəhbəri bildirib ki, ötən mövsüm kollektiv üçün bir çox əlamətdar hadisələrlə yadda qalıb. Müxtəlif tamaşalar hazırlanıb, teatrın yaradıcı heyəti respublikamızda keçirilən tədbirlərdə, eləcə də xarici ölkələrdə təşkil olunan bir sıra festivallarda uğurla iştirak edib. Yeni mövsüm də bu baxımdan istisna olmayacaq.

Diqqətə çatdırılıb ki, Akademik Musiqili Teatr 10–16 sentyabr tarixlərində Belarus Respublikasının Brest şəhərində keçiriləcək 28-ci "Belaya Veja" Beynəlxalq Teatr Festivalında "Aysedora" (müəllif Zinovı Saqalov, quruluşçu rejissor Cavid İmamverdiyev) tamaşası ilə çıxış edəcək.

Bundan əlavə, teatrın vokal artisti Rauf Babayev sentyabrın 21-22-də Qazaxıstanın Karaqanda şəhərində keçiriləcək "DosStar" XIII Açıq Operetta və Müzikl Festivalına qatılacaq. O, festivalda macar bəstəkarı Emre Kalmanın "Sirk şahzadəsi" operettasında oynayacaq (Toni obrazı), həmçinin festivalın qala-konsertində iştirak edəcək.



Teatrın direktoru kollektivin bu ilin sonunadək Gəncə, Lənkəran və Şəki şəhərlərinə də qastrol səfərlərinin nəzərdə tutulduğunu deyib. Toplantıda gələcək layihələr barədə fikirlər səsləndirilib, müzakirələr aparılıb.



# "Hazırladığın dekorasiyanı ekranda görəndə sənətinlə fəxr edirsən"

## Rafael Əsədov: "Quruluşçu rəssam işi nankor sənətdir. Nə qədər əziyyət çəkirsən, sanki heç kim bunu görmür"

Bir vaxtlar televiziya tamaşaları çox dəbdə idi. Çoxumuzun estetik zövqünün formalaşmasında onların öz rolu var. Təkcə dramaturji xətti ilə deyil, ümumi vizual görüntüsü ilə də yaddaşımızda iz qoyan və bu gün də Azərbaycan Televiziyasının "qızıl fond"unda saxlanılan "Topal Teymur", "Ac həriflər", "Nigarançılıq", "Ötən ilin son gecəsi", "Ordan-burdan", "Qonşu qonşu olsa...", "Yaşıl eynəkli adam", "Fatehlərin divanı" və digər tamaşalar.

Bu tamaşalar rejissor, dramaturq, operator və onlarla texniki işçinin əməyinin bəhrəsi olaraq ekranlara çıxırdı. Bu sırada televiziya rəssamının da əməyini unutmaq olmaz. Televiziya tamaşaları və verilişlərini kino sənəti ilə müqayisə etsək, görərik ki, bu sahə də kino kimi müxtəlif sənətlərin sintezindən ibarətdir. Rəssam televiziya tamaşasına estetik keyfiyyət bəxş edir, rejissora, operatora müəyyən ifadə vasitələrindən istifadə edərək hadisələrin mənasını daha dərindən müəyyən etmək, obrazların xarakterik xüsusiyyətlərini vurğulamaq üçün şərait yaradır.

Uzun müddət bu sahədə çalışaraq sənətə töhfəsini verən insanlardan biri də Əməkdar incəsənət xadimi, televiziya və kino rəssamı Rafael Əsədovdur. Rafael müəllim bu ilin iyun ayında 80 yaşını qeyd etdi. Sənətkarla söhbətimizdə onun bu sahəyə gəlişi və sənət haqqında düşüncələrini öyrəndik.

*– Rafael müəllim, televiziya sizin üçün nədir?*

– Fəaliyyətimin bir hissəsi televiziyanın intibah dövrünə düşdü. Rejissor Ramiz Həsənoğlu ilə çox maraqlı işlər ortaya qoyduq. Düşünürəm ki, birgə işlədiyimiz tamaşaların bu sənətdə öz yeri var.

*– Nədənsə, "tamaşaların öz yeri var" ifadəsini qəribə vurğu ilə dediniz...*

– Etiraf edim ki, televiziyada 1968–2012-ci illərdə baş rəssam kimi çalışmağım mənim vaxtımı çox aldı. Sanki sənətimi oğurladı... "Xəbərlər", musiqi proqramları və digər verilişlərin dizayn həlli, müxtəlifxarakterli elmi-kütləvi, əyləncə və konsert proqramlarının tərtibatını, dekorasiyasını hazırlamaq, bilirsiniz nə qədər zaman tələb edir. Gözümü açıb bir də gördüm ki, ömür keçib.

*– Eyni zamanda bu qədər işi görmək çətin deyildi?*

– Tamaşa bir sənət prosesidir, buna əvvəlcədən hazırlıq gedir. Elə tamaşa olurdu ki, çox ciddi proses tələb edirdi. Məsələn, "Fatehlərin divanı" çəkiləndə tarixi ssenari olduğu üçün geyim və dekorasiyalar baxımından xüsusi yanaşma lazım idi. Amma konsert proqramları və digər verilişlərdə dekorasiyalar əvəzlənirdi. Yəni bəzən yenisini hazırlamaq yox, sadəcə, eynisini başqa formatda istifadə etmək mümkün olurdu. Bizim komandada doqquz quruluşçu rəssam var idi. Televiziya çəkilişləri üzrə dekorasiyaların tapşırılması rəssamların peşəkarlığından asılı olaraq bölünürdü. Məsələn, nisbətən gənc əməkdaşlara konsert dekorasiyaları həvalə olunurdu.

*– Televiziyada neçə il çalışdınız?*

– Bir də baxdım 40 il keçib. Sözümü nəyə gətirirəm. Xalq rəssamlarımız Fərhad Xəlilov, Ağaəli İbrahimovla bir qrupda oxumuşam. Televiziyaya gələndən sonra onlardan ayrı düşdüm. Məni sərgilərə dəvət edirdilər. İşimin çoxluğundan gedə bilmirdim. Bir də kitab illüstrasiyası ilə məşğul olurdum deyə vaxtım az qalırdı. Yüzdən çox kitaba tərtibat vermişəm. Əlifba dərsliyi, rus klassiklərinin əsərləri və s.

*– Sərgilərə illüstrasiyalarla da qatılmaq olardı...*

– Düzdür, amma bəzən iki metr və daha böyük həcmli işlərin yanında kiçikölçülü işlərə diqqət olmurdu. Nə isə bu illər ərzində, demək olar ki, rəssamlığın hər sahəsində çalışdım. Teatr tamaşalarına da quruluş vermişəm, teleserialda da işləmişəm. Kino tamam başqa sahədir. Gərək özünü bütünlüklə ona həsr edəsən. Mən televiziyadan ayrılanda artıq kino çəkilişləri, demək olar ki, yox idi.

*– Quruluşçu rəssam – bu anlayış sizin üçün nəyi ifadə edir?*

– Fikrimcə, quruluşçu rəssam çox nankor sənətdir. Bu qədər ki, əziyyət çəkirsən, sanki heç kim bunu görmür. Məkanı tap, necə quraşdırasan – sırf arxitektor işidir. Elə etməlisən ki, həm kameralar rahat işləyə bilsin, həm aktyor üçün rahat olsun, həm də rəqsə yer olsun... Çox çətin işdir.

### Dosye

Rafael Əsədov 19 iyun 1944-cü ildə Masallıda anadan olub. 1961–1966-cı illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxuyub. Daha sonra Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun (indiki AzMİU) Memarlıq fakültəsində təhsil alıb. 1968-ci ildə Azərbaycan Televiziyasında əmək fəaliyyətinə başlayıb. 40 ildən artıq televiziyanın baş rəssamı olub. Eyni zamanda "Yazıçı", "Gənclik", "Maarif" və s. nəşriyyatlarda, habelə "Pioner", "Ulduz" jurnallarında rəssam kimi fəaliyyət göstərib. Sonralar "Space" televiziyasının baş rəssamı (2012-2015) vəzifəsində çalışıb. 2017-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Təsviri sənət kafedrasında müəllim işləyir. Azərbaycan Rəssamlar İttifaqı və Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvüdür.

Rafael Əsədov "Mehmanxana sahibəsi", "Evləri köndələn yar", "Bağışla", "Səndən xəbərsiz", "Ağ atlar üçün vals", "Sən həmişə mənimləsən", "Yad qızı", "İtkin gəlin", "Yurd yeri", "Dirsə xan oğlu Buğac", "Dəvətnamə", "Güllələnmiş heykəllər", "Bəylik dərsi və ya keçmişdən gülməcələr", "Bir rəngin min çaları", "Tək olanda qorxma" və onlarla başqa film-tamaşa, sənədli film, bədii serialın rəssamıdır. Sənətkar bu gün də əsasən illüstrasiya, akvarel və yağlı boya ilə mənzərə, portret, natürmort və etüdlər yaradır. Onun rəsmlərində şəhər lövhələri, məişət, təbiət və digər mövzular izləyiciyə əlvan çalarlarla çatdırılır. İllüstrasiyalarının bir qismi respublikanın aparıcı muzeylərinin eksponatıdır.

Çətinliyi həm də ondadır ki, quruluş sexləri, qrim, kostyum sexi və s. hamının məsuliyyəti səndədir. Amma etiraf edim ki, nə qədər çətin və məsuliyyətli olsa da, sanki insana əlavə bir ruh verir. Məsələn, hər hansı bir tamaşada böyük qayalıqlar düzəldirsən. Sonradan ekrandan bu səhnələri izləyəndə adam öz sənəti ilə fəxr hissi duyur. Yenə də deyirəm ki, bu iş kollektiv işidir. Amma rəngkarlıq başqadır – sırf müəllif işi. Bu, sənsən. Əsərə baxanda yalnız səni görürlər.

*– Niyə belə düşünürsünüz? Bir çox izləyicilər televiziya tamaşasına, lap elə teatr tamaşasına baxanda dekorasiya, rəssam işinə də xüsusi diqqət yetirir.*






*– Görkəmli sənətkarlarla çalışmısınız. Yadınızda qalan maraqlı və qəribə xatirələr var?*

– Biz işlədiyimiz zaman titrlər əl ilə yazılırdı. Təsəvvür edin, "Günün ekranı", "XXI qurultayın işi" və s. kartona yazılırdı. Rəssamlar onu fərqli-fərqli şriftlərlə hazırlayırdılar. Sənaye qrafikasını yaxşı bildiyim üçün mən də işə başlayanda şriftçi rəssamlara başçı təyin edildim. Yeddi il orada çalışdım. Bu sahədə yeniliklər tətbiq etmək lazım idi. Mən isə quruluşçu rəssam olmaq istəyirdim. Bir sözlə, uzun illər rəngkarlıqdan uzaq düşdüyüm üçün peşmanam.

*– Amma siz o cür sənət nümunələrinin rəssamı olaraq tarixə düşmüsünüz...*

– Elədir, amma bir tərəfi də var ki, bəlkə Ramiz Həsənoğlunun ərsəyə gətirdiyi tamaşalar olmasaydı, mən də bu sənətdə uğur qazana bilməyəcəkdim. Ramiz mənim üçün tapıntı oldu. Yəni teatr rejissoru başqadır, televiziya rejissoru başqa. Məsələn, "Ordan-burdan" tamaşasında Salman bəyin kart oynadığı səhnə var, kamera otaqları fırlanır və gəlir əsas məkana. Rəssamın gücü bundadır. Teatrda isə görüntü birtərəflidir. Teatr mənim üçün kəşfiyyat idi. Orada da özümü sınadım. İşləyə-işləyə, təcrübə yığa-yığa gəlib televiziya rəssamlığında bəlli bir səviyyəyə çatdıq. Biz bu modeli yaratdıq.

– Neçə nəfər belə tamaşaçı var?! Əgər rəssam dostların belə bəzən "sən orada nə iş görürsən" sualını verirsə... Bəlkə də indi düşünəcəksiniz ki, bu rəssam necə də eqoist adamdır. Televiziyada işlədiyi zaman fəxri ad da alıb. Bu diqqətə görə sağ olsunlar, minnətdaram.

*– Müəllimliyə nə vaxtdan başladınız?*

– Yaş məsələsi ortaya gələndə. Mənə get demədilər. Sadəcə, hiss edirdim ki, getməliyəm. Hansısa qüvvə var ki, adamın taleyini həll edir. "Space" TV-dən dəvət gəldi, AzTV-dən ayrıldım. Mədəniyyət və İncəsənət Universitetində dostum, Xalq rəssamı Xanlar Əhmədov mənə bu təhsil ocağında işləməyi təklif etdi. Artıq yeddi ildir orada çalışıram. Universitetdə özümü daha rahat hiss edirəm. Sanki yenidən sənətə qayıtmışam. Rejissor, rəssam və sənətşünaslara dərs deyirəm. Burada əlavə işləməyə vaxt da tapıram. Akvarellə işləməyə başlamışam.

*– Təsviri sənətdə akvarelin ən çətin sahə olduğu deyilir.*

– Bəli, akvarel birbaşa iş istəyir. Akvarellə işləmək mənə xoş gəlir və hər dəfə nəsə bir yenilik aşkar edirəm. Kompozisiya fərqini sevirəm. Məkan uğurun yarısıdır. Təbiət mövzularını sevirəm. Daim axtarışdayam. Yağlı boya ilə də işləyirəm. Portretlər çəkirəm.

*– Bildiyim qədər, ailənizdə sizdə savayı rəssamlıqla məşğul olanlar var.*

– Həyat yoldaşım Afaq Kərimova xalçaçı rəssamdır. Qızım Əfşan Əsədova bu sahədə dərs deyir. Oğlum Anar Əsədov da dizayner-rəssamdır.

*– Bəs sizdən əvvəl ailədə rəssam var idi?*

– Yox, o dövrdə mühəndislik dəbdə idi. Ailədə mühəndis olmağımı istəyirdilər. Mən memarlıq və rəssamlıq üzrə təhsil aldım.

*– Tələbələrinizin arasında ümid etdikləriniz çoxdur?*

– Mən onları, onlar da məni çox sevir. Öz övladlarım kimi yanaşıram onlara. Səbirsizliklə də dərslərimizi gözləyirik. Tələbələr həssas olurlar. Müəllimin, həqiqətən, öyrətmək istədiyini hiss edirlər. Necə ki, uşaq onu əmisinin, yoxsa dayısının çox istədiyini bilir...

*– Yaradıcı mühitdən pedaqoji sahəyə keçmək çətin olmadı ki?*

– Əsla. İnsan bu işdən zövq alır.

*– Dostlarınızla tez-tez görüşürsünüz?*

– Adam qocalanda tək qalır. Dost-tanış çoxdur. Əsl dost isə çox az olur. Yaş çoxaldıqca insan ruhuna yaxın olanı axtarır. Mən yumoru, klassik musiqini çox sevirəm.

*– Yubiley tədbirinizi yay mövsümündən sonraya saxladınız...*

– Yubileyimi payızda Rəssamlar İttifaqında sərgi ilə qeyd etməyi düşünürəm.

*– O zaman yubiley sərginizdə görüşmək ümidi ilə...*

**Lalə Azəri**

№66 (2131)
6 sentyabr 2024
www.medeniyyet.az

# Bu yerlərə bir də gələcəyik...

## Laçından bitməyən təəssürat



Sosial şəbəkələrdə qarşıma bir görüntü çıxdı. Beli bükülmüş yaşlı nənə Laçında viran olmuş evinə ağı deyir. Bərk sarsıldım. Uçuq, boş, hənirə həsrət divarlar kimi lal-dinməz seyr elədim mən də...

...Əslində, Laçından bu dəfə başqa ovqatda qayıtmışam. Oradakı quruculuq işləri hələ də gözümün önündə, sinəsinə dağlar çəkilmiş dağların yeni havası ciyərlərimdədir. Doğrudur, yeni Laçındakı buludlara ucalan narıncı damlı ağ evlər arasında addabudda gözümə kadrdakı nənənin evi kimi dağılanlar da dəyirdi. Amma onlar da təmir-bərpa olunub ağ günə çıxan digər evlərə qoşulacaq qısa zamanda...

Laçın budəfəki səfərimizdə (ikinci “Şəhər günü”) parlaq rəngləri ilə bərq vururdu. Zümrüd rəngi günəş şüaları altında yaşıl-mavi işıq saça-saça gözlərimi qamaşdıranda mən bu yurdun cənnətinə qalxdığımı zənn etdim. Qürurdan, bu hissin verdiyi qəhərdən öz gözümdə ucaldıqca ucaldım. Qalib xalqın nümayəndəsi olmaqdan zövq aldım. Dağına, daşına, torpağına təmasdan aldığımız xoşbəxtlikdən bunca il necə məhrum olmuşuq?... Yaşıllıqlar arasında ağappaq boyanmış evlər, onun eyvanlarında buğlanan samovarın ətrafına toplaşan yaşlılar, həyət-bacada oynayan uşaqlar ... necə böyük səadətin təsvirçiləri idilər.

Təsvir demişkən. Bir də onu vəsfə gələn rəssamlar vardı həmin günlər Laçında.

Təəssüratımın coşub-çağladığı bu qeydlərdə Laçına qonaq sənətçilərlə doğma yurda vurğun sakinlərini birləşdirib bir mənzərə hasil etməyə çalışacağam.

***

Seyrəngahda “Qoçdaş” interaktiv sərgisi vardı. İstedadlı fırça ustalarını bir araya gətirən sərgidə Laçının rəmzinə çevrilən və otuz il yağı düşmən tərəfindən talan edilən qoç heykəllərinin maketləri üzərində rəssamların təxəyyülünə şahidlik etdik. Onu da deyim ki, bu rəssamların əl işləri sonda xatirə kimi Laçında qalacaqdı.

Günəşin al şəfəqləri altında təbiətin təsvir bolluğunda gücünü rənglərdən alan rəssamları öz dünyalarından ayırmaq çətin olsa da, bir-iki kəlmə danışdırmaq imkanımız oldu.

Azərbaycan Rəssamlar İttifaqının üzvü Günel Ravilova Laçına ikinci dəfə gəlib.

Təbii təsvirlərə bələnib buralara gözəllik bəxş edən yenilənmiş tikililərin onu xüsusilə məftun etdiyini deyir. Bildirir ki, Laçın mənzərələri rəssam üçün əsl ilham mənbəyidir. İllər əvvəl anası – rəssam Fatma Məstanovanın Laçında mozaikalar çəkdiyini yada salır. O mozaikaların dağıdılmasından dərin təəssüflə danışır.

Rəssam Məhərrəm Əli isə Laçına gəliş sayını unudub və hər səfərin digərləri kimi onu heyrətə qərq etdiyini deyir: “Bura hər gələndə sübhdən oyanır və Həkəri sahilində idman edib, bacardıqca dağlara çəkilirəm. Burada həm də bir dostum var – qartal. Bəzən onu görmək üçün saatlarla gözləyirəm. Mənə elə gəlir ki, o və ümumən digər qartallar məxsusi Laçını salamlamaq üçün az da olsa aşağı enir, qıy vurur və sonra öz kəhkəşanlarında qərq olurlar... Mən də bu yerlərin qəlbimdə oyatdığı o hissləri təsvirə can atıram”.

Mir Azər Abdullayev də “Laçın irsimiz – “Qoçdaş” art-layihəsində rəssamların bir araya gəlməsindən məmnundur. Deyir, Laçına ilk səfərimdir. Çox istərdim ki, belə layihələr davamlı olsun və müxtəlif sənət üslublarında işləyən rəssamlar yeni qurulan Laçını bir də belə yaddaşlara həkk etsinlər.

### Bu gözəl gün və bu məkana gəlişimiz bir möcüzədir

Seyrəngahın yuxarı tərəfində də ayrı bir təntənə vardı. Xalq tətbiqi sənəti təmsilçiləri – nəqqaşlar, şəbəkə, keramika, misgərlik, həsir sənəti ustaları laçınlıları başlarına toplayıb ustad dərsləri, praktik təlimlər keçirdilər. Ölkənin müxtəlif bölgələrindən gələn ustalar uşaqlarla şirin-şirin söhbət edir, onların saysız suallarından yorulmaq bilmirdilər.

Şəkili şəbəkə ustası Soltan İsmayılov da burada idi. 47 ildir bu sənətlə məşğul olan və saysız tələbələr yetişdirən həmsöhbətim laçınlı uşaqların və sözsüz ki, böyüklərin marağından xeyli məmnun görünürdü: “Bu gözəl gün və bu məkana gəlişimiz bir möcüzədir. Bunu yaşadanlara sonsuz təşəkkür edirəm. Laçın memarlığı, xüsusən eyvanları məni cəlb elədi. Şəbəkə sənəti nümunələrinin Laçında da iz salmasını arzu edirəm və inanıram ki, bu sahəyə maraq göstərən gənclər burada da olacaq. Şəbəkə sənəti bir incəlik, dəqiqlik, riyazi bilgilər tələb edir. Ona könül vermək heç də asan olmur”.

Miniatür musiqi alətləri stendinin ətrafında xeyli uşaq və yeniyetmə vardı. Rauf Seyidzadə uşaqlarda maraq yaratmaq üçün daha çox sadə quruluşlu musiqi alətlərini kiçik ölçüdə hazırlamağı məsləhət görürdü. Taxta parçalarına toxunuşlar edən uşaqlar sonra öz əl işlərini xatirə kimi saxlaya da biləcəkdilər deyə xeyli canfəşanlıq edir, sanki yarışırdılar. Əl işləri də tar, kamança, nağara, qaval kimi alətlərin maketləri idi.

Naxışçı misgər (özü peşəsinə həkqaş deyir) Vahid Süleymanov da bərk məşğul görünürdü. Misi sürtə-sürtə həvəslə danışırdı: “Gənclər, uşaqlar mənim əl işlərimə maraq göstərib, misi, bu sərt metalı necə yola gətirdiyimə tamaşa etdikcə kövrəlirəm. Sevinirəm ki, sənət sahəmiz az da olsa, gənclərin diqqətini cəlb edir. Bayaqdan insanlar bu günü tarixiləşdirmək üçün kəsdiyim dairəvi misə naxışlar vururlar. Neynək, qoy bu da bizdən, lahıclı ustadan və həvəskarlardan Laçına xatirə qalsın”.



Vəfa Mustafayeva başına laçınlı gənc xanımları yığmışdı. Təkəlduz, tikmə sənəti ilə məşğul olan usta bura ikinci dəfə gəldiyini deyir: “Unudulmaqda olan sənət növlərini yaşatmaq, o cümlədən Qarabağa xas keçə sənətinin təbliği üçün əlimizdən gələni edirik. Gördüyünüz kimi, bu dəfə keçə sənəti nümunələri ilə yanaşı, həm də tikmə sənəti üzrə sadə nişanları öyrətməyə çalışıram. Ümumən xanımların, qız-gəlinlərin cehizlərini bəzəyən bu zərif tikmələrin daha da populyarlaşmasını arzulayıram”.

### Hamımız nisgilli qayıtsaq da, Laçın dərdimizə dərman olacaq

Laçının bayramı laçınlılarsız olmaz deyib yolunu Seyrəngaha, Həkəri sahilinə salan, üz-gözündən sevinc yağan sakinlərlə də, az da olsa, tanışlıq, ünsiyyət imkanı tapdım.

Ən xoşuma gələni isə hər kəsin bir-biri ilə salamlaşması və “Qonaqsan, deyəsən? Buyur, içəri keç, bir qısmat çörək ye“ deməsi idi.

Qaldığım məkandan üzüyuxarı və aşağı hər sübh tezdən gəzdiyimdən müxtəlif insanları, köhnə yurdundakı təzə evində ruhən də təzələnən, illərin həsrətinə inad buradan getdiyi yaşına “qayıdan” sakinləri gördüm.

Taksi sürücüsü Etibar kişi “Laçında qonaqsan, gözümüz üstə yerin var. Lap istəsən pul vermə. Nə olacaq, pul həmişə olur. Amma qonaq gərək bizdən razı getsin” deyib gülümsədikcə özözümə “dağlar da həmin dağlardı, adamlar da” söylənib xeyli sevindim.

Yolun ortası ilə gəldiyimi görən bir xanım (sonradan tanış olub söhbət etdik Məlahət xanımla) eyvanından əl eləyərək məni israrla içəri dəvət etdi. “Gəl, gör necə bağ salmışam” deyəndə maraq məni götürdü.

Sahibi üçün darıxan torpaq bir ildə bolluca məhsul vermişdi. Rəngarəng güllər, salxımlanan üzümlər, sıralanan tərəvəzlər, göy-göyərtilər 35 il uşaq bağçasında tərbiyəçi işləyən Məlahət xanımın ürəyindəki sızıltını unutdurmaq üçün yetərlidir, məncə. İndi Laçına sevimli həyat yoldaşı və bacısı olmadan, yəni həsrətli illərin ağırlığında bir də doğmalarının itkisi ilə qayıtsa da, tək təsəllisi heç olmasa ahıl çağlarını doğma ocağında keçirməsidir.

Oğlu, nəvələri tez-tez gəlsələr də, burada tək yaşayır. Vaxtının çoxunu bağ-bostanda, bir də bir az aralıda yaşayan qohumlarıgildə keçirir. Deyir, hamımız yaralı, hamımız nisgilli qayıtsaq da, Laçın bizim dərdlərimizə dərman olacaq, əminəm.

Mətanət Muxtarova da sevinclidir. 18 yaşında ailə qurub çıxdığı Laçına – ata yurduna qayıdıb. Hələlik qonaq kimi. Ən böyük arzusu ona da laçında yuva olacaq bir evin verilməsidir. Kövrəlir, gözlərinin yaşını əlinin arxası ilə silərək “Elə bilirəm elə 18 yaşında qalmışam. Atam da, anam da sağdır. İndi “Vağzalı” çalacaq və mən qapımızdan onların xeyirduası ilə çıxacam” – deyir. Köhnə Laçın, itirdiyi doğmaları üçün çox darıxdığını da əlavə edir. Laçını yenidən qurub-yaradanlara təşəkkürünü də unutmur.



Köhnə-təzə qonşularından daha toxtaq görünən Şücaət Baxşəliyeva da 31 yaşında çıxdığı Laçından danışdı. Məcburi köçkün illərinin ağırlığını üzərindən ataraq söhbətin üstündən “Şəhər bizdən ömrümüzü aldı” ilə adlayır. Yeni Laçını vəsfdən doymur: “İnan ki, içimdə bura qayıtmaq inamım heç vaxt öləzimədi. Düzdür, illər keçdikcə kədər yükümüz artırdı. Amma əlimiz Laçından heç vaxt üzülmədi və Ordumuz, dövlət başçımız, bir də Laçına sevdamız bizi buralara qovuşdurdu. İllərin acığına cavanlara qoşulub dağlara qalxdım, çay sahilində nəfəsimi dərib, şəlalələrin buz sularında üz-gözümü yudum. Həsrətimə təsəlli verdim. Qıjı, yarpız, kəkotu, ətotu, qırxbuğum da yığdım...”.

30 illik pedaqoji təcrübəyə malik ibtidai sinif müəllimi olduğunu sonradan öyrəndiyim Zemfira Hüseynovanı gözüm bayaqdan almışdı. Yaz buludu kimi dolan gözlərini uzaqlara zilləmişdi. Pıçıltı ilə nə isə deyirdi. Əvvəl elə bildim Laçına nəğmə oxuyur, zümzümə edir. Bir az da yaxınlaşdım. Tez-tez əlindəki telefonun üz qabığındakı şəklə baxır, sonra öpüb ürəyinin üstünə qoyurdu. Bunu bir neçə dəfə təkrar edəndən sonra “Gəzirəm Laçını, ay Eldəniz. Anan ölsün, amma sənin ayaqlarınla. Kaş sən də gələ biləydin, ay oğul. Axı, sən Laçını hamımızdan çox sevirdin, soyuq torpağa bəzək balam” deyib hıçqırdı.

Bu həzin səsin çağırışı, bir ananın göz yaşları ürəyimi dağlasa da, özümə toxtaqlıq verib ona yaxınlaşdım: “Salam, ay ana. Bəlkə bayaqdan seyrə daldığın Laçını bir də sözə çəkəsən” deyib zoraki gülümsədim.

Dağ adamlarına xas saflığı üzündə izlər salmış ağbirçək qadın cəld yaylığının ucu ilə gözlərini silib “Buy ay qızım, Laçına sözmü çatar?” deyib boynumu qucaqladı.

Batmaqda olan günəşin şəfəqləri onun iri qonur gözlərindəki yaşı parıldatdıqca mənim onunla söhbət arzum daha da artırdı.

Xeyli danışdıq. Buna dərdləşmək də demək olar. Artıq axşam düşdüyündən üşüdüyümü hiss edib, yun şalını çiynimə atdı. Qayğıkeşliklə “Bizə baxma, sən buraların havasına alışmamısan. Azarlarsan. Sonra da deyərlər, laçınlılar qonağa yaxşı baxmadı” deyib güldü. Gənclik illəri, sevgisi, ailəsi, övladları, ev-eşiyi, qayğısız illəri ilə bağlı dedikləri fonunda bir şeyi yəqin etdim ki, Zemfira ana zamanı Laçından çıxanda dondurub. O, yaşadıqlarına rəğmən hələ də 40 yaşında çıxdığı zamanında qalıb.

İki oğul, iki qız anası olan Zemfira xanım bircə oğlunun itkisi ilə barışmır. Deyir “Eldəniz döyüşlər başlayanda Bakıda idi, ali təhsil alırdı. Vəziyyəti bilən kimi bura gəldi. Döyüşlərdə iştirak etdi. Son günə qədər qaldıq. Sonra məcbur bizi də götürüb getdi. Ürəyimə dammışdı ki, o, Laçınsız dözə bilməyəcək. Heç çox dözmədi də. 30 yaşında dayandı ürəyi. Eldəniz bizi aparmışdı burdan. Amma mən onsuz qayıtdım. Lakin elə bilirəm o da mənimlə gəzir, burada, yanımdadır...”.

Ondan Laçına qayıdandan sonra ilk bişirdiyi yeməyi də soruşuram. Beləcə, onu tez-tez kökləndiyi kövrək notlardan ayırmağa çalışıram. Deyir, əlbəttə ki, qaralı aş bişirdim. Üstəlik bozartma, buğlama da asdım. Sonra Laçını gəzdim. Piyada gedə bilmirəm. Nəvəm, oğlum maşınla aparıb, dağlardan kəkotu da yığmışam. “Sənə də pay gətirəcəm. Sabah burda ol ha” deyib sağollaşdı.

Sevil Musayeva Laçın rayonunun Bozlu kəndindədir. 58 yaşı var. Hazırda burada çalışır. Deyir, təki Laçında olum: “İnan, o qaratikan, əl-ayağımıza batan tikan üçün də darıxmışdım. İnşallah, öz evimiz tikiləndə ora – kəndimizə qayıdacam. İndi doğma rayonumuzdayam. Tez-tez kəndimizə baş çəkirəm. Artıq iki ildir buradayam. Qəfil dünyasını dəyişən oğlumun dərdi olmasa idi, buralarda yüz il daha yaşayaram. Doğma yurdumuza itki ilə qayıtdım. Amma təsəllim dərdimə dərman Vətən torpağıdır”.

***

Elə bilməyin ki, Laçında ancaq yaşlı nəslin nümayəndələri var. Yeni nəsil laçınlılarla da tanış oldum.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat mühəndisliyi üzrə 3-cü kurs tələbəsi 20 yaşlı Nemət Qəhrəmanov bura tətilə gəlib. Bekar dayanmağı sevmir deyə xidmət sahəsində çalışır. Deyir, təhsilimi başa vuran kimi Laçına qayıdacam: “Hazırda Laçında böyük quruculuq işləri gedir. Çox istərdim ki, Laçının aurası pozulmadan bir modern şəhər salınsın. Təbiətlə təmasda, bir növ, ənənə ilə müasirliyin sintezində, təbii landşaft qorunmaqla qurulsun bu şəhər. Gələcəyin inşaat mühəndisi kimi burada diqqətimi çəkən başqa bir məqam şəhərin özünəməxsus memarlıq üslubu və ona uyğun bərpa işləridir...”.

Həkəri sahilində gəzintidə daha iki işıqlı Laçın sakini ilə tanış oldum. Üz-gözündən mehribanlıq, şəfqət yağan Şəfəq Məmmədli həkimdir. Söhbət zamanı bacısı ixtisasca müəllim olan Aybəniz Məmmədli ilə də qaynayıb-qarışdıq. Ayın sularda yaratdığı təsvir fonunda böyük ailənin iki şən, mehriban, sevgi dolu qızı uzun illər öncəyə qayıtdılar. 86 yaşlı ataları Məhər kişinin Laçına köçünün səadətində özləri də uşaqlaşmışdılar, sanki. Onlar danışır və təsvir əyaniləşir. Budur, dəcəllik edib ağacların başında gəzdilər, fındıq ağaclarının kolları arasında gizlənqaç oynadılar. Yorulmaq bilmirlər, indi də “Bənövşə, bəndə düşər, bizdən sizə kim düşər?” deyib qruplara bölündülər. Sonra üzüaşağı qaçışdılar. Sürətlərini saxlaya bilməyib yıxıldılar. Qanayan diz və dirsəklərini analarından gizləmək üçün evlərinə qaçdılar... Anaları qumral saçlarını darayıb, hörəcəkdi. Ataları “Yüz dəfə demişəm ki, qız uşağısız, o qədər qaçdı-tutdu oynamayın. Baxın, əl-ayağınız çapıq-çapıqdı” deyib guya onlara hirslənəcək, anaları dözməyib “Yaxşı, atası, bir də eləməzlər” deyib qızlarını süfrə arxasına yığacaqdı...

“Gecəniz xeyrə. Atamız təkdir. Narahat olar. Biz gedək, səhər Bayraq meydanındakı yürüşdə görüşərik” deyib uzaqlaşan bacılarla da, hələ axşam mənimlə vədələşən Zemfira xanımla da yenidən görüşdüm. Sözsüz, yenə də yenidən görüşmək üçün vədələşdik. Yaxın zamanda Laçında görüşənədək, dostlar...

**Həmidə Nizamiqızı**

---

**Pressfakt**

Sentyabr sənət aləmində yeni mövsümün ilk ayıdır. Ölkəmizin teatrları da pərdələrini açmağa hazırlaşır. Yaradıcı kollektivlərin planları çoxdur. Bəs, görəsən, yarım əsr öncə teatrlarda mövsümqabağı nə yeniliklər vardı. Mətbuat xronikasından növbəti seçmədə 54 il əvvələ qayıdırıq...

# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən (24)

### Yeni teatr mövsümü

Yaxın günlərdə teatrlar öz işıqlarını yandıracaqlar. Təzə mövsümdə teatrlarımızın həyatında nə kimi yeniliklər baş verəcəkdir? Redaksiyamız bu sualla teatrların rəhbərlərinə müraciət etmişdir.

**T.Kazımov**, M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının baş rejissoru.

– Hər şeydən əvvəl, qeyd etməliyik ki, teatr respublikamızın 50 illiyini yeni tamaşa ilə qeyd edəcəkdir. Biz bayram tamaşamızı Sabit Rəhmanın “Küləklər” pyesi əsasında hazırlayırıq. Məqsədimiz şən, məzəli və eyni zamanda inqilabi ruhu ilə səciyyələnən bir səhnə əsəri yaratmaqdır.

Teatr sənəti qarşısında duran yaradıcılıq problemlərinin hamısı eyni dərəcədə vacibdir. Məhz buna görə də dramaturgiya məsələsini yeni aktyor və yeni rəssam problemlərindən ayırmaq olmaz. Həmişə olduğu kimi, bu il də həmin məsələlərin müvəffəqiyyətli həlli uğrunda çalışmaq lazım gələcəkdir. Keçən illərə nisbətən bu il müasir mövzulu pyeslərimiz daha çox olacaqdır.

Biz müasir pyeslərin səhnə təcəssümü ilə yanaşı, milli, klassik dramaturgiyamızı da unutmuruq. Bu sahədə axtarışlar aparır və klassiklərimizin əsərlərinin müasir, daha dolğun səhnə həlli haqqında ciddi düşünürük.

İbsen, Hauptman və başqa nəhəng dramaturqların əsərlərini tamaşaya qoymaqla biz teatrımızın tərcümeyi-halını daha da zənginləşdirə bilərik. Bu məqsədlə Yuqoslaviyanın məşhur dramaturqu B.Nuşiçin “Nazir xanımı” komediyasını hazırlamışıq. Bu yaxınlarda teatrın həmin məhsulu tamaşaçıların mühakiməsinə təqdim ediləcəkdir.

**S.Səidova**, M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru.

– 1970-ci il teatrımız üçün uğurlu olmuşdur. Fransaya qastrol səfərimizi xatirinizə salın. Kollektimiz çox məsul bir imtahan qarşısında idi. Aktyorlarımız bu imtahandan fərəhlə çıxdılar.

Bu ilin ikinci xoş hadisəsi ukraynalı dostlarımızla görüşümüzdür. Teatrın kollektivi bir ay yarımdan artıq Kiyevin T.Q.Şevçenko adına Opera və Balet Teatrı binasında çıxış etdi.

Bu ilin üçüncü xoş hadisəsi odur ki, il yarımlıq əsaslı təmir işlərindən sonra sentyabrın 18-də teatrımızın pərdəsi açılacaqdır. Həmin gün Azərbaycan sovet musiqisinin banisi Üzeyir Hacıbəyovun anadan olması gününə təsadüf edir. Bu dəfə də teatrımız öz ənənəsinə sadiq qalaraq bəstəkarın “Koroğlu” operasını göstərəcəkdir.

Hər yeni mövsüm teatrın yaradıcı kollektivi qarşısında yeni tələblər qoyur. Bu ilki tələblər daha məsuliyyətlidir. Onu deyim ki, zəhmətkeşlər bu il yeni opera tamaşalarına baxacaqlar. Bu, bəstəkar Ə.Bədəlbəylinin “Söyüdlər ağlamır” operasıdır. İkinci yeni tamaşa A.Xolminovun “Nikbin faciə” operasıdır.

P.Çaykovsinin “Qaratoxmaq qadın”, S.Prokofyevin “Monastırda nişanlanma”, S.Ələsgərovun “Bahadır və Sona”, R.Mustafayevin “Vaqif” operaları yenə də repertuarda öz yerini tutacaqdır.

Balet tamaşalarımızdan Q.Qarayevin yeni quruluşda “Yeddi gözəl” baleti, həmçinin “İldırımlı yollarla”, “Leyli və Məcnun”, F.Əmirovun “Şur”, R.Hacıyevin “Azərbaycan süitası”, T.Bakıxanovun “Xəzər balladası”, F.Qarayevin “Qobustan kölgələri” tamaşaları da afişalarımızı zinətləndirəcəkdir.

**B.Qasımov**, M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru.

– Yeni teatr mövsümündə repertuarımızı nəzərdən keçirmiş, onun rəngarəng olması, təzə əsərlərlə zənginləşməsi üçün müəyyən işlər görmüşük. Hazırda Azərbaycan bölməsi E.Voyniçin “Ovod” romanının yeni səhnə variantını tamaşaya hazırlayır. H.Soltanovun rejissorluğu ilə hazırlanan bu əsər qarşıdakı yubileyə həsr edilir. Həmin bölmə A.Şaiqin “Gözəl bahar”, İ.Coşqunun “Rüstəm və Zöhrab” əsərləri üzrə yeni tamaşalar hazırlamağı nəzərdə tutmuşdur.

Rus bölməsində A.Lindqrenin “Uzuncorab Peppi”, A.Şagiyanın “İstəkli balam”, Q.Mamlinin “Salam, dost!”, A.Lourensin “Veytsad əhvalatı” əsərləri builki repertuara daxil edilmişdir.

Dramaturqlarla yaradıcılıq əlaqəmizi daha da möhkəmlətmək məqsədilə bu yaxınlarda teatrda yazıçılarla görüş keçirilmişdir. Hazırda yazıçılarımızdan Y.Əzimzadə, R.İsmayılov, C.Məmmədov yeni əsərlər üzərində işləyirlər. Lakin üç əsərin yazılması çox azdır. Buna görə də teatrımızın Azərbaycan bölməsində əsər çatışmır.

Arzu edirəm ki, dramaturqlarımızın teatrla əlaqəsi daha da möhkəmlənsin.

*“Kommunist” qəzeti, 9 sentyabr 1970-ci il*



# Kənd klubunda baxdığı tamaşadan sonra səhnəyə bağlanmışdı

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının XX əsrin ikinci yarısından sonrakı dövrü haqqında bəhs edərkən yada düşən sənətkarlar sırasında Xalq artisti İbrahim Bənəniyarlının da adı hörmətlə çəkilir. O öz dəst-xətti ilə Naxçıvan səhnəsində silinməz iz qoyub, xarakterik rolların mahir ifaçısı kimi tanınıb. Bu il aktyorun anadan olmasının 90 illiyi, vəfatının isə 10-cu ildönümüdür.



İbrahim Əhməd oğlu Məmmədov 22 dekabr 1934-cü ildə Culfa rayonunun Bənəniyar kəndində anadan olub. Kəndlərində səkkizillik məktəbi bitirib, təhsilini qonşu Əbrəqunus kəndindəki orta məktəbdə davam etdirib. 1955-ci ildə, hərbi xidmətdən qayıtdıqdan sonra taleyini səhnəyə bağlayıb.

Aktyor sənətə gəlişini belə xatırlayırdı: "1955-ci ildə ilk dəfə kəndimizin klubunda Naxçıvan teatrı kollektivinin göstərdiyi Süleyman Sani Axundovun "Eşq və intiqam" tamaşasına baxırdım. Görkəmli sənətkar, Azərbaycanın Xalq artisti mərhum İbrahim Həmzəyev Çingiz rolunda çıxış edirdi. İbrahim Həmzəyevin oyunu çox təsirli idi və məndə aktyor olmaq həvəsi oyatdı. Bu hadisədən bir neçə gün sonra Naxçıvan teatrına getdim. Teatrın direktoru və bədii hissə müdiri İbrahim Həmzəyevlə görüşüb aktyor olmaq istəyimi bildirdim. Bu görüşdən sonra aktyorluq fəaliyyətinə başladım".

İbrahim Bənəniyarlı 50 ilə yaxın Naxçıvan səhnəsində çalışır. Əvvəllər romantik səpkili epizodik rollarda çıxış edən aktyor getdikcə irihəcmli xarakterik səhnə surətlərini də ustalıqla yaradır. Onun komediya və musiqili əsərlərdə yaddaqalan obrazları daha çoxdur.

Aktyor 1956-cı ildə ilk dəfə İ.Həmzəyevin quruluşunda Əyyub Abbasovun "Aqil və Sərvinaz" pyesində Əsarət (Zindanban) obrazını oynayır. Gənc aktyor ilk rolu ilə həm teatr kollektivinin, həm də tamaşaçıların rəğbətini qazanır. Onun canlandırdığı epizodik obrazlardan digəri Süleyman Rüstəmin "Qaçaq Nəbi" (1958, quruluşçu rejissor İ.Həmzəyev) mənzum pyesindəki Qurd Kərim daha səciyyəvi idi. Səhnədə yalnız bir neçə dəfə görünməsinə baxmayaraq, aktyor ifası ilə tamaşaçıları məftun edir.

İbrahim Bənəniyarlı həyatda sakit və təmkinli idi. Səhnəyə qədəm qoyduğu an onu tanımaq olmurdu.



Canlandırdığı hər bir obraza sənətkar gözü ilə yanaşırdı. Onun yaradıcılıq manerasında bayağı, şit, süni hərəkətlər ola bilməzdi. Naxçıvan teatrının baş rejissoru Baxış Qələndərlinin quruluşunda 1967-ci ildə tamaşaya qoyulan "Mən onu axtarıram" (Süleyman Rəşidi) komediyasındakı Zurnaçı Murtuz rolunu xüsusi şövqlə canlandırır və onun oyunu olduqca təbii alınır. Bununla da quruluşçu rejissor yeni bir komik aktyor kəşf etmiş olur. B.Qələndərli İbrahim Bənəniyarlının sənəti münasibəti haqqında deyirdi: "Mən bir çox tamaşalarda baş rolu İbrahim Bənəniyarlıya tapşırmışam. O, sözün həqiqi mənasında, müasir aktyordur. İbrahimin ən yaxşı cəhəti odur ki, o öz obrazı üzərində əsl yaradıcılıq işi aparır". İbrahim Bənəniyarlı isə söhbətlərində sənət uğurlarına görə unudulmaz rejissorlar İ.Həmzəyevlə B.Qələndərliyə borclu olduğunu dönə-dönə vurğulayırdı.

İbrahim Bənəniyarlının məharətlə canlandırdığı Yalçın, Dəvəçi ("Səyavuş", "Şeyx Sənan" – H.Cavid, 1962), Bəxtiyar ("Komsomol" – S.Vurğun, 1962, səhnələşdirən İ.Coşqun), Yaşar ("Yaşar" – C.Cabbarlı, 1969) obrazlarından sonra yaradıcılığında yeni mərhələ başlanır. Y.Əzimzadənin "Anacan" pyesi Azərbaycanın Əməkdar artisti Vəli Babayevin quruluşunda 1978-ci ildə tamaşaya qoyulur. Köhnəliyin məngənəsindən çox çətinliklə xilas olan təsərrüfat müdiri Rüstəmov (İ.Bənəniyarlı) hadisələrin gedişində tez-tez gülüş burulğanına düşür. Aktyor səhnə əsərində gülüş vəziyyətlərini şərja varmadan, özünəməxsus təbii oyunu ilə təqdim etməyə nail olur.

Ümumiyyətlə, İbrahim Həmzəyevin yaradıcılığında komediya janrında oynadığı rollar daha doğmadır. Lakin bu o demək deyil ki, o birplanlı aktyordur. Qətiyyən. O, Naxçıvan səhnəsində İbrahim Həmzəyev, Ələsgər Şərifov, Niyazi Şərifov, Nəsir Sadıqzadə, Hüseyn Sultanov, Rza Sarabski, Baxşı Qələndərli, Vəli Babayev, Əliqismət Lalayev, Əsgər Əsgərov, Kamran Quliyev və digərlərinin quruluş verdiyi tamaşalarda müxtəlifxarakterli rollarda çıxış edib.

O, eyni zamanda bir sıra musiqili komediyalarda və milli operalarda da maraqlı surətlər yaradıb. Komik şəpkili rollara daha meyilli olan aktyor Salam Qədirzadənin "Haradasan, ay subaylıq?" (1969) musiqili komediyasında yaratdığı Novruzqulu surəti onun yaradıcılığında önəmli yer tutur. Aktyor Sabit Rəhmanın "Toy" (1977) tamaşasında Kərəmov, "Hicran"da (1981) Dadaşbala obrazında öz sənətkar məharətini bir daha nümayiş etdirir. Üzeyir Hacıbəylinin əsərlərində canlandırdığı obrazlar – "Məşədi İbad"da Məşədi İbad, "Arşın mal alan"da Soltan bəy, "Leyli və Məcnun"da İbn Səlam, "Ər və arvad"da Mərcan bəy də tamaşaçıların böyük marağına səbəb olmuşdu.

İbrahim Bənəniyarlı Naxçıvan səhnəsində nümayiş olunan tamaşalarda Azərbaycanın tanınmış sənətkarları – SSRİ Xalq artisti İsmayıl Dağıstanlı, respublikanın Xalq artistləri Lütfəli Abdullayev, Beşir Səfəroğlu, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Səyavuş Aslan, Yaşar Nuri və başqaları ilə tərəf-müqabil olmuşdu.

O, Naxçıvan teatrının kollektivi ilə dəfələrlə qastrollarda olub, o cümlədən Türkiyənin Ankara, İstanbul, Trabzon, Bursa, Qars, İqdır şəhərlərində səhnəyə çıxıb. "Arşın mal alan"ın Qarsda (1998) nümayişi böyük maraqla qarşılanmış, tamaşa bütövlükdə lentə alınmışdı.

İbrahim Bənəniyarlının Naxçıvan teatrının inkişafında xidmətləri yüksək qiymətləndirilib. O, 1974-cü ildə muxtar respublikanın, 1984-cü ildə Azərbaycan SSR-in "Əməkdar artist"i fəxri adları ilə təltif edilib. Sənətkarın yaradıcılığı müstəqillik illərində də qiymətləndirilib, "Xalq artisti" fəxri adına, 2005-ci ildə Prezidentin fərdi təqaüdünə layiq görülüb.

Sənətkar 2014-cü il sentyabrın 9-da əbədiyyətə qovuşub, doğulduğu Bənəniyar kəndində dəfn olunub.

**Əli Qəhrəmanov**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

# "Molla Nəsrəddin" nüsxələrinin Elmi Bərpa Mərkəzindən keçən yolu





Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin (1869–1932) anadan olmasının 155 illiyi qeyd olunur. O, ədəbiyyatımızın yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış, ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətlərdən biridir. Azərbaycançılıq məfkurəsi ədibin zəngin yaradıcılıq irsində dolğun şəkildə əksini tapıb. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaradıb.

Ana dilimizin saflığı uğrunda davamlı mübarizə aparan Cəlil Məmmədquluzadənin ərsəyə gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika örnəkləri dərin humanist məzmuna malik olub, özündə milli və bəşəri dəyərlərin vəhdətini ehtiva edir. XX əsrin əvvəlində Azərbaycan xalqının milli oyanışına, azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı Mirzə Cəlil dühasının məhsuludur.

Azərbaycanda ilk satirik jurnal hesab edilən "Molla Nəsrəddin"in nəşri Mirzə Cəlil və tanınmış maarifçi, ictimai-siyasi xadim, publisist Ömər Faiq Nemanzadənin (1872–1937) adı ilə bağlıdır. Bu jurnal həmin dövrün bir sıra görkəmli ziyalı, ədib və şairlərini ətrafına toplamışdı. "Molla Nəsrəddin" jurnalı ictimai-siyasi və mədəni mühitin çatışmazlıqlarını sadə xalq dilində, düşündürücü, gülüş doğuran üslubda əks etdirirdi.

Həftədə bir dəfə Azərbaycan dilində çıxan bu jurnal bütün müsəlman dünyasında və Yaxın Şərqdə rəngli və şəkilli yeganə satirik nəşr idi. Hər nömrəsi 8 səhifədən ibarət olan jurnalda ictimai bəlaların tənqidinə və ifşasına, rəngli karikaturalara geniş yer verilirdi. Jurnalın ətrafına cəm olmuş yaradıcı qüvvələr cəmiyyətdəki problemləri açıb göstərməklə xalqın ictimai-siyasi şüurunu inkişaf etdirmək, onu dünyanın ən qabaqcıl və mədəni xalqları cərgəsinə qoşmaq istəyirdilər.



Müəyyən fasilələrlə nəşr olunan jurnal 1906–1918-ci illərdə Tiflisdə, 1920–1921-ci illərdə Təbrizdə, 1922–1931-ci illərdə isə Bakıda nəşr olunub. Jurnal 25 il ərzində 748 nüsxə nəşr edilib və 1931-ci ilə qədər fəaliyyət göstərib.

Azərbaycanın mətbuat və ədəbiyyat tarixində silinməz iz qoyan bu jurnalın arxivlərdə qorunan nüsxələrinin bərpası istiqamətində əhəmiyyətli işlər görülüb. 2016-cı ildə "Molla Nəsrəddin"in 48, 2018-ci ildə isə 72 nüsxəsi bərpa məqsədilə Mədəniyyət Nazirliyinin Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinə daxil olub. Bərpa işinin məqsədi eksponatların məhv olunmasının qarşısını almaqdır. Amma qeyd edək ki, bərpa təkcə görkəmli mədəniyyət abidələrini qaytarmır, eyni zamanda müxtəlif sənət məktəblərinə və üslublarına xas olan bədii və texnoloji vasitələrin mahiyyətini hərtərəfli öyrənməyə, bu və ya digər əsərin nə vaxt və kim tərəfindən yaradıldığını müəyyənləşdirməyə, onun korlanmasının səbəblərini üzə çıxarmağa imkan verir.

Qrafik incəsənət əsərlərinin bərpası digər növ incəsənət əsərlərinin bərpasından mürəkkəbliyinə görə fərqlənir. Bərpaya qəbul olunan hər bir eksponatın zədələrinin qısa təsviri verildikdən dərhal sonra üzərində tədqiqat işi aparılır.

Elmi Bərpa Mərkəzi hər il yüzlərlə incəsənət əsərini, muzey eksponatını bərpa edib həyata qaytarır. "Molla Nəsrəddin" jurnalının nüsxələrinin bərpasında bu sətirlərin müəllifi bilavasitə iştirak edib. Mərkəzə daxil olarkən jurnal nüsxələrinin vərəqləri saralmışdı, bir çox səhifələrdə isə zədələr vardı.



İndi isə eksponatların üzərində bərpa proseslərinin aparılmasına nəzər yetirək.

Öncə dezinfeksiya və kimyəvi tədqiqat işləri həyata keçirilir. Sonrakı mərhələdə kağızların tərkibi öyrənilir, üzərindəki yazıların mürəkkəb və ya çap üsulu



ilə yazıldığı müəyyən edildikdən sonra jurnalların hansı mühitdə (qələvi və yaxud turş mühit) saxlanıldığı öyrənilir. Nəşrlərin bərpası bir neçə mərhələdən keçir: eksponat mexaniki üsulla tozdan təmizlənir, rəng qatı bərkidilir, kağızın turşuluğu yoxlanılır və kimyəvi maddələrlə neytrallaşdırılır və kalium hidroksid məhlulu ilə ləkə aradan qaldırılır. Sonda isə neytrallaşma (su ilə yuyulma) həyata keçirilir. Vərəqlərdəki ləkələrin çıxarılması iki üsulla həyata keçirilir. Bu proses əsasən qeyri-üzvi maddələrlə aparılır. Nadir hallarda isə üzvi maddələrdən istifadə olunur. Burada yüksəkmolekullu maddələr lazımdır. Çünki bu, jurnal vərəqlərinin ömrünü uzadır. Bəzi hallarda isə qələvilərdən istifadə edilir.

Səhifədə itirilmiş hissə müəyyən olunduqdan sonra dublirə (alternativ əsas) və ya konservasiya işləri aparılır. Daha sonra eksponatın növünə uyğun kağız seçilir (kətan, oduncaq, sellüloz və yaxud əski növlü kağız) və ona müvafiq yapışqan hazırlanır. Yapışqanların da bir neçə növü var: kozeyin, balıq yapışqanı, un və kimyəvi tərkibli yapışqanlar.

"Molla Nəsrəddin" jurnalının bərpasında metil sellüloz yapışqanından istifadə olunub. Bu kimyəvi tərkibli yapışqanla vərəqin itirilmiş hissəsi bərpa olunur, daha sonra isə vərəqin üzərinə kondensator adlanan kağız çəkilir. Vərəqlər filtrə kağızının arasında qurudulduqdan sonra yerli pres altında saxlanılır. Preslənmə bir neçə gün davam edir. Eksponatın bütün qopmuş səhifələri ayrılıqda bərpa olunduqdan sonra jurnal əvvəlki formasına salınır.

Preslənmə bitdikdən sonra optimal temperatur, təzyiq və rütubət təmin edilir. Bərpa olunmuş nümunələr bu şəraitdə muzeylərə, arxivlərə qaytarılana qədər saxlanılır.



"Molla Nəsrəddin" XXI əsrin insanını da ruhlandırmağa davam edir. Elmi Bərpa Mərkəzinin Qrafika şöbəsi bu dəyərli irsimizi bərpa edərək gələcək nəsillərə ötürür.

**Pərvin Sadıqova**
**Elmi Bərpa Mərkəzinin əməkdaşı, kimyaçı-mühəndis**

## Xatirə təqvimi — 8 – 11 sentyabr

### Azərbaycan

**8 sentyabr 1903** – Əməkdar artist Dadaş Kamil oğlu Şaraplı (Məmmədov; 1903–1959) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub.

**8 sentyabr 1906** – Xalq artisti Yelena Vladimirovna Taryeva (1906–1962) Odessada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1938-ci ildən) olub.

**8 sentyabr 1949** – Əməkdar incəsənət xadimi Hüseynağa Ağahüseyn oğlu Atakişiyev (1949 – 9.4.2006) Bakıda anadan olub. Şəki Dövlət, Akademik Milli Dram teatrlarında baş rejissor işləyib. 1989-cu ildə Gənclər Teatrını (2009-cu ildə Gənc Tamaşaçılar Teatrına birləşdirilib) yaradıb. "Üzeyir ömrü" (1981) filmində çəkilib.

**8 sentyabr 1982** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (25.12.1909 – 1982) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, "Səbuhi" filmində M.Ş.Vazeh rolunda çəkilib.

**8 sentyabr 2015** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (28.5.1927 – 2015) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Filmlərdə musiqiləri ifa edib.

**9 sentyabr 1937** – Əməkdar mədəniyyət işçisi Aybəniz Səməd qızı Vəkilova (1937 – 13.6.2009) anadan olub. Səməd Vurğunun Bakıdakı ev-muzeyinin baş mühafizi və direktoru işləyib.

**9 sentyabr 1939** – Xalq artisti İrina Aleksandrovna Perlova (1939 – 14.9.2010) anadan olub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında (rus bölməsi) quruluşçu rejissor işləyib.

**9 sentyabr 1991** – Dünyaşöhrətli xalçaçı alim, dekorativ sənət ustası, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimov (1906 – 9.9.1991) vəfat edib. "Azərbaycan xalçalarında ornament", "Azərbaycan xalçası" çoxcildliyi və s. kitabların müəllifidir. L.Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunub.

**9 sentyabr 2014** – Xalq artisti İbrahim Əhməd oğlu Məmmədov (Bənəniyarlı; 22.12.1934 – 2014) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**9 sentyabr 2022** – Əməkdar incəsənət xadimi, bəstəkar Ruhəngiz Nağı qızı Qasımova (12.7.1940 – 2022) vəfat edib. Tamaşalara, filmlərə ("Möcüzələr adası", "Alman klinikasına şəxsi səfər" və s.) musiqi yazıb, mahnıların müəllifidir.

**10 sentyabr 1901** – Əməkdar artist, vokalçı Qulam Məşədi Kazım oğlu İsgəndərov (1901–1975) Şamaxıda doğulub. Opera və Balet Teatrında çalışıb.

**10 sentyabr 1917** – Xalq artisti Firuzə Məmmədqulu qızı Əlixanova (1917 – 24.11.1994) Naxçıvan MR Ordubad rayonunda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının ilk aktrisalarından olub.

**10 sentyabr 1931** – Xalq artisti, tanınmış vokal ifaçısı, aktyor Mobil Salman oğlu Əhmədov (1931 – 3.6.2006) Gəncədə doğulub. 40 ilə yaxın Musiqili Komediya Teatrında çalışıb, tamaşalarda əsas rolları ifa edib.

**10 sentyabr 1935** – Şərqşünas Maqsud İbrahim oğlu Hacıyev (1935 – 2.3.2023) Quba rayonunun Gümür kəndində anadan olub. İran, əfqan ədəbiyyatına dair tədqiqatların müəllifi, tat və fars dilləri ilə bağlı lüğətlərin tərtibçisidir.

**10 sentyabr 2015** – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) vəfat edib. Gənc Tamaşaçılar Teatrında baş rəssam işləyib.

**10 sentyabr 2021** – Prezident İlham Əliyev Xalq rəssamı Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**11 sentyabr 1913** – Xalq artisti, kinorejissor Muxtar Baba oğlu Dadaşov (1913 – 7.5.1998) anadan olub. "Qanun naminə", "Bakıda küləklər əsir" və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin ("Yeni horizont", "Arşın mal alan") operatoru olub.

**11 sentyabr 2001** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (15.3.1914 – 2001) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

### Dünya

**8 sentyabr 1830** – Fransız şairi Frederik Mistral (1830–1914) anadan olub. 1904-cü ildə ispan dramaturqu Xose Eçeqaray-i-Eysagirre ilə birlikdə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb. Kitabları: "Mireyo", "Qızıl adalar", "Zeytun yığımı".

**8 sentyabr 1841** – Çex bəstəkarı Antonin Leopold Dvorjak (1841–1904) anadan olub. 10 opera ("Su pərisi", "Armida" və s.), 9 simfoniya, 5 simfonik poema və başqa əsərlərin müəllifidir.

**8 sentyabr 1923** – Dağıstanın Xalq şairi Rəsul Həmzətov (1923 – 3.11.2003) anadan olub. Milliyyətcə avardır. Kitabları: "Dostları qoruyun", "Mənim Dağıstanım" və s. Şeirlərinə populyar mahnılar bəstələnib. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin mükafatına layiq görülüb.

**8 sentyabr 1937** – Türk kinoaktyoru Cüneyt Arkın (əsl adı Fahrettin Cüreklibatur; 1937 – 28.6.2022) anadan olub. 300-dək filmdə çəkilib.

**9 sentyabr 1583** – İtalyan bəstəkarı, fuqa musiqi alətinin yaradıcılarından biri Cirolamo Freskobaldi (Girolamo Frescobaldi; 1583–1643) anadan olub.

**9 sentyabr 1828** – Rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (1828 – 20.11.1910) Tula quberniyasının Yasnaya Polyana kəndində doğulub. Əsərləri: "Ailə xoşbəxtliyi", "Hərb və sülh", "Anna Karenina", "Dirilmə" (romanlar), "Kreyser sonatası", "Kazaklar", "Hacı Murad" (povestlər), "Canlı meyit" (pyes) və s.

**9 sentyabr 1908** – İtalyan yazıçısı Çezare Paveze (Cesare Pavese; 1908–1950) anadan olub. "Yoldaş", "Xoruz banlamayınca", "Gözəl yay", "Ay və tonqallar" və s. romanların müəllifidir.

**9 sentyabr 1913** – Türk rəssam, səhnə tərtibatçısı, teatr rejissoru və pedaqoq Tarık Levendoğlu (1913 – 8.9.1978) anadan olub.

**10 sentyabr 1912** – Danimarka karikaturaçısı Herluf Bidstrup (Herluf Bidstrup; 1912–1988) anadan olub.

**10 sentyabr 1914** – Amerika kinorejissoru Robert Uayz (Robert Wise; 1914–2005) anadan olub. İki dəfə "Oskar" mükafatı alıb: "Vestsayd əhvalatı", "Musiqi səsləri".

**10 sentyabr 1934** – Türk mənşəli (Krım tatarı) Ukrayna bəstəkarı Alemdar Karamanov (1934–2007) anadan olub. Əsərləri: "Ay dənizi" simfoniyası, "Məhəbbətdən güclü" baleti və s.

**11 sentyabr 1862** – Amerika yazıçısı, novella janrının ustası O` Henri (William Sydney Porter; 1862–1910) anadan olub. Əsərləri: "Dörd milyon", "Yanan lampa", "Taleyin yolları" hekayələr toplusu, "Krallar və kələm" romanı və s.

**11 sentyabr 1865** – Latviya şairi və dramaturqu Yan Raynis (əsl soyadı Pliekşans; 1865–1929) anadan olub. Kitabları: "Tufan səpini", "Son və başlanğıc", "Evə".

**11 sentyabr 1894** – Ukrayna kinorejissoru, SSRİ Xalq artisti Aleksandr Dovjenko (1894–1956) anadan olub. Filmləri: "Arsenal", "Torpaq", "Aeroqrad" və s.

**11 sentyabr 1885** – İngilis yazıçısı David Herbert Lourens (David Herbert Lawrence; 1885–1930) anadan olub. Psixoloji romanları ilə məşhurlaşıb: "Göy qurşağı", "Vurğun qadınlar", "İtkin qız", "Ledi Çatterleyin məşuqu".

**11 sentyabr 1903** – Alman filosofu və musiqişünası Teodor Adorno (Theodor Ludwig Wiesengrund-Adorno; 1903–1969) anadan olub.

**Hazırladı: V.Orxan**

# Dünya Köçəri Oyunlarında 89 ölkə təmsil olunacaq

## İdman, ənənəvi xalq oyunları və mədəni irs bir arada

8–13 sentyabr tarixlərində Astanada (Qazaxıstan) keçiriləcək V Dünya Köçəri Oyunlarında 89 ölkə təmsil olunacaq. Ev sahibi ölkə budəfəki Oyunları idman, ənənəvi xalq oyunları və mədəni irsin bir arada təqdim edildiyi möhtəşəm bayrama çevirmək niyyətindədir.

Burada təşkil olunacaq "Şərq bazarı"nda Qazaxıstanın 200-dən çox sənətkarı öz məhsullarını təqdim edəcək. Oyunların iştirakçılarına, turistlərə qazax xalqının milli təamları təqdim olunacaq.





"Kazanat" yarış meydançası yaxınlığında keçiriləcək tədbirlə bağlı təxminən 10 hektar ərazidə "Köçərilər dünyası" etnoaulu (etnokənd) qurulub. Etnoaulda mərkəzi meydan, xalq musiqisi üçün çadır, açıq səma altında "Köçəri sivilizasiyalar muzeyi", idman tədbirləri, milli mətbəx, əsas səhnə və s. məkanlar var.

Oyunlar ərəfəsində Qazaxıstanın Türküstan bölgəsində "Birlik kerueni" ("Birlik karvanı") layihəsi təşkil olunub. Karvan Türküstandan paytaxt Astanaya yollanıb. Müxtəlif bölgələrdən olan idmançıların iştirakı ilə yerlərdəki bulaqlardan və quyulardan su götürülərək Astana şəhərinə çatdırılacaq.

Qeyd edək ki, V Dünya Köçəri Oyunları 21 idman növü üzrə keçiriləcək. 89 ölkədən təxminən 2800 nəfər iştirakçı 97 dəst medal uğrunda yarışacaq.

Dünya Köçəri Oyunları ilk dəfə Qırğızıstanın təşəbbüsü ilə 2014-cü ildə keçirilib. Qırğızıstan 2016-cı və 2018-ci illərdə ikinci və üçüncü Oyunlara da ev sahibliyi (Çolpon-Ata şəhəri) edib. 2020-ci ildə Türkiyədə (Bursanın İznik bölgəsi) nəzərdə tutulan IV Dünya Köçəri Oyunları pandemiya səbəbindən ertələnib və 29 sentyabr – 2 oktyabr 2022-ci il tarixlərində gerçəkləşib. Azərbaycan da ənənəvi olaraq Dünya Köçəri Oyunlarında geniş heyətlə təmsil olunur.

# Ailə, övlad sənətdən üstündür

## Müğənni Adel ana olmaq üçün karyerasına fasilə verəcək



Dünyaca məşhur britaniyalı müğənni Adel Las-Veqas (ABŞ) şəhərində qastrol səfərini başa vurduqdan sonra musiqi karyerasına uzun fasilə verəcək və bir neçə il səhnələrdə görünməyəcək.

16 dəfə "Qremmi" mükafatının qalibi olan sənətçi bu barədə Almaniyanın Münxen şəhərində konsertində bildirib.

"Mən dincəlməliyəm. Son yeddi ildə mən özüm üçün yeni həyat qururam və indi onu yaşamaq istəyirəm. Sizi uzun müddət görməyəcəm. Bu inanılmaz uzun fasilə olacaq. Sizin üçün çox darıxacağam", – deyən müğənni izdiham arasında göz yaşlarına da hakim ola bilməyib.

Müğənnin 2022-ci ilin noyabrında başlayan qastrol səfəri Las-Veqasdakı Kolizey Teatrında silsilə konsertlərlə noyabrın 23-də baş çatacaq.

36 yaşlı müğənni bir qədər əvvəl 42 yaşlı idman agenti Riç Polla evləndiyini açıqlayıb.

Keçmiş əri Simon Koneckidən Ancelo adlı 11 yaşlı oğlu olan sənətçi bir qız övladının da olmasını istədiyini və bu üzdən "uzun karyera fasiləsi"nə çıxacağını deyib.

# Türkiyənin Film-San Vəqfi sənətçiləri mükafatlandıracaq

## Namizədlər arasında azərbaycanlı aktrisa Məlahət Abbasova da var

Sentyabrın 9-da Türkiyənin Film-San Vəqfi 2023–2024-cü il mövsümündə kino və serial sektorunun uğurlu simalarını mükafatlandıracaq. Sənətçilər vəqf tərəfindən 49 il aradan sonra ilk dəfə təntənəli mərasimdə təltif ediləcəklər.




Mükafata namizədlər arasında qardaş ölkədə yaşayan və yaradıcılıq fəaliyyəti göstərən Azərbaycanın Əməkdar incəsənət xadimi, aktrisa-rejissor Məlahət Abbasova da var.

O, belə nüfuzlu mükafata namizəd sənətçilər arasında yer almasının qürurverici və sevincli olduğunu bildirib. "Xəbəri eşidəndə inanılmaz dərəcədə sevindim. Bu cür mərasimdə Azərbaycanı qardaş ölkədə təmsil edən sənətçi kimi adımın hallanması mənim üçün sənətimə verilən gözəl qiymətdir. Namizədlər siyahısında Türkiyənin tanınmış sənət adamları var və belə bir mükafata namizəd olmaq çox qürurvericidir. Burada seçilib-seçilməmək o qədər də mühüm deyil. Əsas odur ki, Türkiyədə yayımlanan o qədər serial arasında ən yaxşı qadın aktrisalardan biri kimi diqqəti cəlb edə bilmişəm və bu rola görə məni namizəd seçiblər".

Qeyd edək ki, Film-San kino-serial mükafatları ümumilikdə 32 kateqoriya üzrə veriləcək.

Məlahət Abbasova "Kanal7"də yayımlanan "Əsarət" serialında canlandırdığı Afife Demirhanlı (Ana) obrazına görə "Ən yaxşı serial – ikinci dərəcəli qadın rolu" nominasiyasında mükafata namizəddir. Bu nominasiyada daha dörd serialdan oyunçular namizəd göstərilib: "Safir" (Nur Yazar); "Bahar" (Hatice Aslan); "Şahanə həyatım" (Sumru Yavrucuk); "Qızıl qönçələr" (Hasna Güneş).

İstanbul Böyükşəhər Bələdiyyəsi Mədəniyyət İdarəsi və Beyoğlu Bələdiyyəsinin dəstəyi ilə keçiriləcək Film-San mükafatlandırma mərasimi ötən bir il ərzində Türkiyənin kino və serial sektorunda adları önə çıxan isimləri bir araya gətirəcək.

Mərasim üçün xüsusi yaradılan münsiflər heyəti tərəfindən hər kateqoriya üzrə beş namizəd elan edilib. Türkiyənin iki ustad sənətçisi Serdar Gökhan və Hülya Koçyiğit Film-San Vəqfinin "Şərəf mükafatı" ilə təltif olunacaqlar.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (8 – 11 sentyabr)

### 644 il əvvəl...



**8 sentyabr 1380-ci ildə** Don çayının sahilindəki Kulikovo çölündə rus knyazlıqları ilə Qızıl Ordanın qoşunları arasında döyüş olub. Vladimir və Moskva knyazı Dmitri İvanoviçin ordusu Qızıl Orda xanı Mamayın başçılıq etdiyi qoşunları məğlub edib. Bundan sonra Qızıl Ordanın rus knyazlıqları üzərində hökmranlığı zəifləsə də, daha yüz il (1480-ci ilədək) sürdü.

### 406 il əvvəl...

**10 sentyabr 1618-ci ildə** Səfəvi və Osmanlı dövlətləri arasında növbəti müharibənin (1616–1618) nəticələrinə dair Mərənd sülh sazişi imzalanıb. Səfəvi dövləti XVI əsrin sonunda Osmanlı ilə müharibədə (1578–1590) itirdiyi torpaqların böyük hissəsini geri aldı. Bir müddət sonra (1625) tərəflər arasında yeni müharibə başlandı.

### 229 il əvvəl...

**11 sentyabr 1795-ci ildə** Tiflis yaxınlığında gürcü çarı II İraklinin qoşunları ilə İran şahı Ağa Məhəmməd Qacarın qoşunları arasında döyüş olub. Qacarın qoşunları gürcüləri məğlub edərək Tiflisi ələ keçirib. Bir il sonra II İrakli Rusiya imperiyası ilə müqavilə bağladı və Kartli-Kaxetiya çarlığı Rusiyanın himayəsinə keçdi.

### 82 il əvvəl...

**9 sentyabr 1942-ci ildə** SSRİ Dövlət Müdafiə Komitəsinin qərarı ilə Azərbaycan SSR ərazisində hərbi vəziyyət elan edilib. Bu vaxt Almaniya qoşunları Qafqaz dağlarında idi və Bakı üzərinə hava reydləri həyata keçirilirdi.



### 76 il əvvəl...

**9 sentyabr 1948-ci ildə** Koreya Xalq Demokratik Respublikası yaranıb. II Dünya müharibəsindən sonra Yaponiyanın işğalından azad edilən Koreya yarımadası SSRİ və ABŞ-nin (38-ci paralel üzrə) nəzarətinə keçmişdi.

### 72 il əvvəl...

**11 sentyabr 1952-ci ildə** Qərbi Almaniya (AFR) Kansleri Konrad Adenauer və İsrailin Baş naziri Ben Qurion barışıq sazişi imzalayıblar. Sazişə əsasən, Almaniya faşist idarəçiliyi dövründə yəhudilərə qarşı həyata keçirilmiş soyqırımına (Holokost) görə İsrail dövlətinə 300 milyon dollar təzminat ödəməli idi.

### 51 il əvvəl...

**11 sentyabr 1973-cü ildə** Çilidə hərbi çevriliş baş verib. General Auqusto Pinoçetin başçılıq etdiyi hərbi xunta Prezident Salvador Alyendeni qətlə yetirib. Pinoçet rejimi 1989-cu ilədək sürdü. Həmin ildə o, azad seçkilərə şərait yaradaraq hakimiyyətdən getdi.

### 33 il əvvəl...

**8 sentyabr 1991-ci ildə** Azərbaycanda ilk prezident seçkiləri keçirilib. Əksər siyasi qüvvələrin boykot etdiyi və alternativ namizədin olmadığı seçkilərdə Azərbaycan KP MK-nın 1-ci katibi Ayaz Mütəllibov prezident seçilib.

### 26 il əvvəl...

**8 sentyabr 1998-ci ildə** Bakıda tarixi İpək Yolunun bərpası ilə bağlı Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə beynəlxalq konfrans keçirilib. 32 ölkənin, 12 beynəlxalq təşkilatın iştirak etdiyi konfransda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin yaradılması haqqında müqavilə imzalanıb.

### 23 il əvvəl...



**11 sentyabr 2001-ci ildə** ABŞ-də dəhşətli terror aktları baş verib. Terrorçu kamikadzelər tərəfindən qaçırılmış üç sərnişin təyyarəsindən ikisi Nyu-Yorkda Dünya Ticarət Təşkilatının qoşa qüllələrinə, biri isə Vaşinqtonda Pentaqonun (ABŞ Müdafiə Nazirliyi) binasına çırpılıb. 3 minə yaxın insanın həyatına son qoyan terrora görə məsuliyyət Üsamə bin Ladenin "Əl-Qaidə" təşkilatının üzərinə qoyulub.

**Hazırladı: V.Orxan**

# Azərbaycan filmi Antalya festivalının müsabiqə proqramında

Əməkdar incəsənət xadimi, rejissor Elçin Musaoğlunun "Məryəm" bədii filmi oktyabrın 5-dən 15-dək Antalyada keçiriləcək "Altın portağal" Beynəlxalq Film Festivalının müsabiqə proqramında nümayiş olunacaq. Bu barədə festivalın saytında məlumat verilib.




Film uzun illər vəfat etmiş hesab etdiyi atasının sağ olduğunu öyrənən və onunla görüşmək üçün Azərbaycana gələn qızın təsirli hekayəsindən bəhs edir. O, həyatını kökündən dəyişdirən və həmin ana qədər bildiyi hər şeyi yenidən düşünməyə vadar edən bir həqiqətlə qarşılaşır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, "Azərbaycanfilm" kinostudiyası, Türkiyənin TRT telekanalı və "Sinema evi" studiyasının birgə əməkdaşlığı ilə çəkilən filmin premyerası 2023-cü ilin oktyabrında Bakıda III "Korkut Ata" Türk Dünyası Film Festivalında olub.

"Altın portağal" Türkiyənin kino sahəsində ən böyük festivalı sayılır. Hər il festivala dünyanın bir çox ölkələrindən filmlər qatılır.

# UNESCO-da "Rəqəmsal Öyrənmə Həftəsi"

2-5 sentyabr tarixlərində UNESCO-nun Parisdəki mənzil-qərargahında "Rəqəmsal Öyrənmə Həftəsi" keçirilib.

Tədbirdə Azərbaycan nümayəndə heyəti də iştirak edib. Elm və təhsil nazirinin müavini Həsən Həsənlinin rəhbərlik etdiyi heyət UNESCO-nun Baş Konfransının sədri Simona Miculescu və UNESCO-nun baş direktorunun təbiət elmləri üzrə müavini Lidiya Brito ilə görüşüb. Görüşlər zamanı UNESCO ilə elm və təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri müzakirə olunub.

"Rəqəmsal Öyrənmə Həftəsi" çərçivəsində Azərbaycan heyəti təhsilin rəqəmsallaşdırılması, süni intellektin təhsildə istifadəsi, yaşıl və rəqəmsal çağırışlar və digər mövzular üzrə plenar sessiyalara qatılıb.

# Bir ayda 11 milyon qonaq – turizmin nəhəngi İspaniyadır

Dünyanın ən çox əcnəbi turist qəbul edən ölkəsi olan İspaniya bu il də birinciliyi əlində saxlamaq niyyətindədir.



İyul ayında ölkəyə gələn turistlərin sayı ötən ilin eyni ayı ilə müqayisədə 7,3 faiz artaraq 10,9 milyon nəfərə çatıb.

Bu, ölkəyə turist axınının statistikasının aparıldığı 1995-ci ildən bəri rekord göstəricidir.

İyulda İspaniyaya ən çox turist Böyük Britaniyadan gəlib: 2 milyon nəfər. İkinci yeri Fransadan (1,62 milyon), üçüncü yeri Almaniyadan (1,25 milyon) gələnlər tutub. Bir ay ərzində ölkəyə gələnlərin ümumi xərcləri 15,54 milyard avro və ya adambaşına orta hesabla 1432 avro təşkil edib.

2024-cü ilin yanvar-iyul aylarında İspaniyaya turist axını 12 faiz artaraq təxminən 53,4 milyon nəfərə çatıb. Bu həm də müvafiq dövr üçün rekord göstəricidir.

# Mərakeş turizmində rekord göstərici

2024-cü ilin ilk yeddi ayının statistikasına əsasən, Mərakeşin hava nəqliyyatı sektorunda 18,5 faiz artım müşahidə olunub və ölkəyə gələn turistlərin sayı 18,1 milyona çatıb.



Mərakeş Milli Hava Limanlarının yaydığı məlumata əsasən, ölkəyə səfər edənlərin 19 faizi Avropadan, 12,1 faizi Yaxın və Uzaq Şərqdən, 16,4 faizi Afrikadan, 8.4 faizi isə Şimali Amerikadan gələnlərdir.

Qeyd edək ki, geniş turistik imkanları olan bu Şimali Afrika ölkəsinin əhalisi 38 milyona yaxındır. Bu arada Mərakeşdə əhalinin növbəti siyahıyaalınması aparılır. Sentyabrın 30-dək davam edəcək bu proses müasir texnologiyaların tətbiqi – elektron lövhələrlə həyata keçirilir. Rəqəmsallaşdırmadan siyahıyaalınmanın həyata keçirildiyi ərazilərin xəritələrinin tərtib edilməsində də istifadə olunur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2054
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641